www.musavat.com

YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 7 may 2025-ci il Çərşənbə № 78 (8688) Qiymətı 60 qəpik

**Xəbər**

## 2016-cı ilin neft kabusu təkrarlana bilərmi?

yazısı səh.13-də

# PAPİKYAN AFİNADA - YUNANISTAN YENİ SİLAHLAR GÖNDƏRƏCƏK

Rəsmi İrəvan təhlükəli oyunun içərisində: sülh bəyanatları fonunda silah alış-verişi davam edir; Bakıdan xəbərdarlıq

yazısı səh.9-da



## Rusiya ilə gərginləşən münasibətlər - əsas problem nə?

Bakı ilə Moskva arasında bir neçə mövzuda açıq qalan məsələ var - Rusiya təyyarə qəzasına görə hələ də susur

yazısı səh. 5 və 10-da

**Gündəm**

### Bakı məktəblərində oxuyanlar niyə 300-dən az bal toplayıb?



Ekspert deyir ki, əgər belə davam edərsə...

yazısı səh.3-də

### "Amnesty İnternational" Azərbaycanı şərləməkdən əl çəkmir

yazısı səh.7-də

### ABŞ səfirinin Bakıda boş qalan kürsüsü

yazısı səh.6-da

### Paytaxtın ən yaxşı məktəbləri açıqlandı - siyahı

yazısı səh.3-də

### Miqrantlarla bağlı yeni qərar - azərbaycanlılar...

yazısı səh.7-də

### Belarusun baş naziri Qarabağda

yazısı səh.9-da

### Muğam müsabiqəsi seçimlərində "dayı" ittihamı

yazısı səh.12-də

### Banklar köhnəlmiş dolları niyə qəbul etmir?

yazısı səh.13-də

### Metro "Ağ şəhər"ə və NZS-ə gəlir

yazısı səh.14-də

### Naxçıvanda yeni nazir təyinatı

yazısı səh.3-də

### Səfirliyimizə hücum edəni nə vaxt asacaqlar?

yazısı səh.2-də

### Kazinolar açılarsa, nə qazanar, nə itirərik?

yazısı səh.14-də



### Paşinyana qarşı impiçment hazırlığı

yazısı səh.4-də



### Vyetnam liderinin Bakı səfəri - Hanoy bizə nə verəcək?

yazısı səh.8-də



Azər Badamov

### "Mənim Rusiya dövlətinə qarşı heç bir fikrim olmayıb"

yazısı səh.11-də

# Nemət Pənahlı "Toyota Lənd-Kruzer"ini yandıracaq



**"Vergi borcuna görə mənə məxsus avtomobilin üzərinə həbs qoyulmuşdu. Bunun üçün Ali Məhkəməyə şikayət vermişik. Amma hələ məhkəmə bununla bağlı hər hansı bir qərar çıxarmayıb. Buna baxmayaraq, bir müddət öncə biri gəlib ki, bəs mən hərrac yolu ilə sizə məxsus avtomobili almışam".**

Bu sözləri "Teleqraf"a açıqlamasında ləğv edilmiş Azərbaycan Milli Dövlətçilik Partiyasının sədri Nemət Pənahlı deyib. O qeyd edib ki, iş Ali Məhkəmədə ola-ola hərrac keçirib, avtomobili dəyərindən üç qat aşağı qiymətə başqa şəxsə satıblar: "Hərracın nə vaxt, kimlərin iştirakı ilə keçirilməsindən xəbərim olmayıb. Qiymətləndirmənin nə vaxt, harada olması ilə bağlı heç bir informasiya verilməyib. Gələn adama sual verirəm ki, bazarda 26 min manata 2010-cu il buraxılışı olan və 2018-ci il modelə yığılan "Toyota Lənd-Kruzer" varmı? Deyir, nə bilim, mən almışam". Yenə sual verirəm ki, avtomobili görmədiyin halda onu necə ala bilərsən? Susur, cavab verə bilmir".

Nemət Pənahlı avtomobili yandıracağını, onlara verməyəcəyini bildirib.

## Hikmət Hacıyev Səid Xətibzadə ilə görüşdü



**Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev İran Xarici İşlər Nazirliyinin Siyasi və Beynəlxalq Araşdırmalar Mərkəzinin rəhbəri, nazir müavini Səid Xətibzadə ilə görüşüb. Bu barədə İranın Azərbaycandakı səfirliyi məlumat yayıb.**

Görüş zamanı Azərbaycanla İran arasında ikitərəfli əməkdaşlıq və regional gündəlikdəki məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Evdən qaçan qızları gizlədən həbs olundu



**Bakının Sabunçu rayonunda itkin düşən qızları evində gizlədən taksi sürücüsü Ramiz Rasim oğlu Umudov həbs olunub.**

"Teleqraf" xəbər verir ki, ona İnzibati Xətalar Məcəlləsinin 510 (xırda xuliqanlıq) və 535.1-ci (polis işçisi və ya hərbi qulluqçu ictimai qaydanın mühafizə vəzifələrini icra edərkən, onların qanuni tələblərinə qəsdən tabe olmama) maddələri ilə ittiham elan edilib.

R.Umudovun barəsində olan iş Sabunçu Rayon Məhkəməsinə göndərilib. Hakim Teymur Həsənovun sədrliyi ilə keçirilən prosesdə qərar elan edilib. O, xırda xuliqanlıq və polisə müqavimət göstərməkdə təqsirli bilinib. Qərara görə, R.Umudov 10 gün müddətinə həbs olunub.

Qeyd edək ki, bu ilin aprelin 16-da saat 20:00 radələrində 2008-ci il təvəllüdlü Aygün Bəhram qızı Hüseynova və 2007-ci il təvəllüdlü Reyhan Elşən qızı Hüseynova evdən heç kimə xəbər vermədən çıxıb gediblər və geri qayıtmayıblar. Dayıqızı-bibiqızı olan yeniyetmələr aprelin 26-da Sabunçuda taksi sürücüsünün evindən tapılıblar.

## Şeyx Türkiyəyə getdi



**Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Türkiyəyə səfər edəcək.**

Səfər Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri Akkan Suverin dəvəti ilə baş tutacaq.

QMİ sədri mayın 7-8-də İstanbulda keçiriləcək 28-ci Avrasiya İqtisadi Zirvəsində iştirak edəcək.

Vəqfin 40-cı ildönümü ərəfəsində dünyanın müxtəlif ölkələrini təmsil edən dövlət rəsmiləri, nüfuzlu din xadimləri, siyasətçilərin iştirak edəcəyi zirvədə Şeyxülislam Allahşükür Paşazadə fəxri qonaq kimi iştirak və çıxış edəcək.

## Səfirliyimizə hücum edəni nə vaxt asacaqlar?



**İranın məhkəmə hakimiyyətində hökmün icrası üçün zəruri prosedurların başa çatması lazımdır. Bu məsələ xüsusi şikayət əsasında tənzimlənir.**

Bunu İranın Xarici İşlər Nazirliyinin Siyasi və Beynəlxalq Araşdırmalar Mərkəzinin (IPIS) rəhbəri, nazir müavini Səid Xətibzadə Bakıda jurnalistlərə açıqlamasında bildirib.

"Azərbaycanın səfirliyinə hücum acı bir hadisə idi. Bu hadisədən sonra həm polis, həm də məhkəmə hakimiyyəti tərəfindən çox geniş istintaq aparıldı. Baxmayaraq ki, bu acı hadisə idi, amma hər iki xalqın təmaslarını daha da yaxınlaşdırdı. Hər iki tərəf münasibətləri yenidən canlandırmaq üçün təşəbbüslər irəli sürdü. İranın məhkəmə hakimiyyətində hökmün icrası üçün zəruri prosedurların başa çatması lazımdır. Bu məsələ xüsusi şikayət əsasında tənzimlənir və Azərbaycanın İrandakı səfirliyi bu məsələ ilə maraqlanır. Əminəm ki, ədalət qələbəsini çalacaq və hökm icra olunacaq", - Səid Xətibzadə Azərbaycanın Tehrandakı səfirliyinə hücum edən Yasin Hüseynzadənin barəsindəki hökmün icra olunmamasına münasibət bildirərkən deyib.

## Məhkəmədən Tofiq Yaqublu qərarı



**Milli Şuranın üzvü Tofiq Yaqublu və onunla birgə ittiham olunan jurnalist Elnur Məmmədovun (Vaqifoğlu) apelyasiya şikayəti üzrə məhkəmə prosesi başa çatıb.**

Bakı Apelyasiya Məhkəməsində keçirilən prosesdə vəkillər müvəkkilləri Tofiq Yaqublu barəsində seçilmiş həbs-qətimkan tədbirinin ev dustaqlığı ilə əvəz olunmasını xahiş ediblər.

Vəsatət təmin edilməyib və proses mayın 23-nə təxirə salınıb.

Qeyd edək ki, Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Tofiq Yaqublu 9 il və Elnur Məmmədov 8 il müddətinə azadlıqdan

## Azərbaycandan Papa seçkisində iştirak edən yoxdur



**Mayın 7-də Vatikanın qəlbi hesab edilən Sikstin Kapellasında növbəti Roma Papasının kim olacağına qərar veriləcək konklav başlayır.**

Müqəddəs Taxt-Tacın rəhbərsiz qaldığı bu günlərdə bütün dünyanın gözü yenidən Roma Katolik Kilsəsinə yönəlib. Yeni Papa seçimi ilə bağlı ehtimallar, favoritlər və ideoloji qarşıdurmalar beynəlxalq medianın əsas mövzularından biridir.

Qeyd edək ki, sonuncu Roma Papası Fransisk aprelin 21-də 88 yaşında vəfat edib. O, aprelin 26-da Santa Maria Maggiore bazilikasında dəfn edilib.

Modern.az-a açıqlamasında Azərbaycanda Katolik Kilsəsinin Apostol Prefekturasının mətbuat katibi Toral Ağayev deyib ki, Azərbaycanda kardinal olmadığına görə Papa seçkisində ölkəmizdən iştirak edən olmayacaq: "Papa kardinallar tərəfindən seçilir. Mayın 7-də seçkidə iştirak etmək hüququna sahib olan kardinallar Papa seçkisi üçün Sikstin kapellasına yığışacaq. Azərbaycanda kardinal yoxdur deyə, bizdən heç kəs orada iştirak etməyəcək".

Azərbaycan katoliklərin hansı namizədi dəstəkləməsi ilə bağlı sualımıza isə T.Ağayev belə cavab verib: "Biz dua edirik ki, Papa Allahın iradəsinə görə seçilsin. Seçilən Papa Allahın iradəsinə uyğun olan namizəd olsun".

## Dövlət qurumlarına kiberhücumlar



**Bu ilin yanvar-aprel aylarında Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti dövlət qurumlarına 371 kiberhücum indikatoru (IOC) müəyyən edib.**

Dövlət Xidmətinin məlumatları əsasında apardığı hesablamalara əsasən, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 18% çoxdur.

Kibertəhdidlərin 146-sı daxili araşdırma, 225-i isə dövlət qurumlarından daxil olmuş insidentlərin araşdırılması əsasında müəyyən olunaraq bloklanıb.

Təkcə apreldə isə 81 kiberhücum müəyyən olunub ki, bu da 1 il əvvələ nisbətən 29% çoxdur.

Hesabat dövründə "AzStateNet" şəbəkəsi üzrə 180,505 milyon zərərli keçid, son istifadəçilərdə quraşdırılan mərkəzi antivirus sistemi vasitəsilə 5 milyon 213 min 100, "Sandbox" mühafizə sistemi vasitəsilə isə 55 min 296 zərərverici tərkibli elektron sənəd blok edilib.

## Şəmkirdə tələbə özünü meşədə asdı

**Şəmkirin Çinarlı qəsəbəsində tələbə intihar edib.**

Qəsəbə sakini, 2006-cı il təvəllüdlü Nəriman Məmmədov meşəlik ərazidə ağacdan özünü asıb.Tələbənin meyiti meşədə asılmış vəziyyətdə tapılıb. Qeyd edək ki, İ.Məmmədov Azərbaycan Dövlət Aqrar Universitetinin 2-ci kurs tələbəsi olub.

İntiharın səbəbi məlum deyil.



## Tehran-Bakı təyyarə reysi açıldı

**Gündəlik Tehran-Bakı reysləri açılıb. Bu barədə İran hökumətinin sözçüsü Fatimə Möhecerani mətbuat konfransında bildirib.**

"Prezident Məsud Pezeşkianın Azərbaycana ilk səfəri fonunda ikitərəfli siyasi etimadın yaradılması istiqamətində strateji əməkdaşlıq və iqtisadi diplomatiyaya dair hərtərəfli sənəd layihəsinin hazırlanması və özəl sektor investorları ilə çoxsaylı görüşlərin keçirilməsi barədə razılıq əldə olunub. Bu səfərin nəticəsi olaraq uzun müddətdər həyata keçirilməyən gündəlik Tehran-Bakı reysləri açılıb", - o qeyd edib.

# Bakı məktəblərində oxuyanlar niyə 300-dən az bal toplayıb?

## Paytaxtın təhsil müəssisələrində şagirdlərin əksəriyyəti yalnız formal olaraq dərslərdə iştirak edir; ekspert deyir ki, əgər belə davam edərsə...

**2024-cü ildə Bakının ümumtəhsil müəssisələrini 28203 şagird bitirib və onların 28115 nəfəri buraxılış imtahanında iştirak edib. Dövlət İmtahan Mərkəzinin məlumatına görə, məzunların 3073 nəfəri 500-dən, o cümlədən 964 nəfəri 600-dən yuxarı bal toplayıb. Məlumata görə, məzunların 8.24%-i (1798 nəfər) 0-100 intervalında, 23.82%-i (5197 nəfər) 100-200 intervalında, 21.83%-i (4763 nəfər) 200-300 intervalında, 32.03%-i (6988 nəfər) 300-500 intervalında, 14.08%-i (3073 nəfər) 500-dən yuxarı bal toplayıb.**

Beləliklə, şəhərin abituriyentlərinin yalnız 46.11%-i 300-dən yuxarı bal toplayıb.

**Təhsil eksperti Kamran Əsədov** mövzu ilə bağlı "Yeni Müsavat"a fikrini bölüşüb: "2024-cü ildə Bakı şəhərinin ümumtəhsil məktəblərini bitirən 28.203 məzundan 28.115 nəfəri ali məktəblərə qəbul üzrə Dövlət İmtahan Mərkəzinin buraxılış və qəbul imtahanlarında iştirak edib. Həmin abituriyentlərin yalnız 46.11%-i - yeni təxminən 12.964 nəfəri - 300-dən yuxarı bal toplayıb. Qalan 53.89% isə 300 baldan aşağı nəticə göstərib: onların içərisində 1798 nəfər (8.24%) 0-100, 5197 nəfər (23.82%) 100-200, 4763 nəfər (21.83%) isə 200-300 intervalında qərarlaşıb. Bu göstəricilər ölkənin sosial, texnoloji və pedaqoji baxımdan ən üstün imkanlara malik təhsil mühitində - paytaxtda - belə nəticələrin qənaətbəxş olmadığını açıq şəkildə göstərir.

Mövcud qanunvericiliyə əsasən, "Təhsil haqqında" Qanunun 5.1-ci maddəsinə görə, ümumi təhsilin məqsədi şagirdlərin bilik, bacarıq, düşüncə və əxlaqi keyfiyyətlərinin formalaşdırılması və onların cəmiyyətə yararlı fərd kimi yetişdirilməsidir. Lakin bu nəticələr göstərir ki, bu məqsədin icrası, xüsusilə Bakıda nəzərdə tutulan şəkildə təmin olunmur. Bakı şəhəri ölkənin ən iri təhsil şəbəkəsinə sahib olan ərazidir. Burada 300-dən artıq orta məktəb, lisey və gimnaziya fəaliyyət göstərir, müəllim kontingenti çoxşaxəli və maddi-texniki baza, infrastruktur imkanları digər regionlarla müqayisədə qat-qat üstündür. Buna baxmayaraq, nəticələrin bu qədər zəif olması sistemli struktur və məzmun problemini göstərir. Əsas problemlərdən biri məktəbin təhsil verən orqan statusunun zəifləməsidir. Son illərdə repetitorluq sisteminin güclənməsi və məktəb tədrisinin əhəmiyyətinin ikinci plana keçməsi Bakıda tədrisin keyfiyyətinə birbaşa təsir göstərib. Bakı məktəblərində şagirdlərin əksəriyyəti yalnız formal olaraq dərslərdə iştirak edir, real hazırlıq isə məktəbdənkənar ödənişli resurslarda aparılır. Bu isə təhsil sistemində sosial bərabərsizliyi daha da dərinləşdirir və yalnız maddi imkanı olanların yüksək nəticə göstərməsi tendensiyasını gücləndirir. Bu xüsusda, qəbulda 500-dən yuxarı bal toplayan 3073 nəfərin (yeni 14.08%) əsasən xüsusi statuslu və ya repetitor dəstəyi almış məktəblərin şagirdlərindən ibarət olması təsadüfi deyil".

**Ekspert ikinci əsas problemi təmayüllü təhsilin imitasiya xarakterli tətbiqi ilə bağlı olmasında görür:** "Təmayülləşmənin hüquqi əsasları Nazirlər Kabinetinin 2015-ci il tarixli qərarında təsbit olunsa da, bu təmayüllərin formalaşması yalnız sinif adlarında əks olunur, lakin dərs saatı bölgüsü, proqramın dərinləşdirilməsi, laborator baza və müəllim ixtisaslaşması baxımından əksər hallarda real tətbiqi yoxdur. Beləliklə, humanitar təmayüllü sinifdə təhsil alan şagird bəzən texniki fənlərə eyni həcmdə vaxt ayırmaq məcburiyyətində qalır və proqram ona uyğunlaşdırılmır. Bu isə həm təhsil nəticələrinə, həm də motivasiyaya zərbə vurur.

Müəllim hazırlığı məsələsi də nəticələrin aşağı olmasında mühüm rol oynayır. Təhsil İnstitutunun 2023-cü ildə apardığı təhlil göstərir ki, Bakı məktəblərində fəaliyyət göstərən müəllimlərin 37%-i pedaqoji-metodik hazırlıq baxımından müasir kurikulumun tələblərinə cavab vermir. Sertifikasiya nəticələri də bu reallığı təsdiqləyir: paytaxt müəllimlərinin yalnız yarısı 60 baldan yuxarı nəticə göstərə bilib. Bu isə dərsdə interaktivliyin, müasir tədris metodlarının və şagird yönümlü yanaşmanın zəifliyinə gətirib çıxarır. Belə mühitdə şagirdin tənqidi düşünmə, analiz, tətbiqetmə və nəticə çıxarma bacarıqları inkişaf etmir. Nəticədə, qəbul imtahanlarında mətnlərə əsaslanan situativ suallarda zəif performans müşahidə olunur.

Psixoloji amil də nəzərəçarpacaq dərəcədə əhəmiyyətlidir. Bakı şəhərində yüksək nəticə gözləntisi fonunda formalaşan sosial təzyiq, gənclərdə ciddi psixoloji yüklənmə yaradır. Həm valideynlərin, həm məktəbin, həm də ictimaiyyətin gözləntiləri birbaşa şagirdin psixoloji tarazlığına mənfi təsir edir. İmtahan günü təşviş, performans düşməsi və diqqət dağınıqlığı bu səbəblə daha çox paytaxtda müşahidə olunur".

**Bununla belə, Kamran Əsədovun sözlərinə görə, müsbət məqam ondan ibarətdir ki, 2024-cü ildə 600 baldan yuxarı nəticə göstərənlərin sayı 964 nəfərə çatıb və bu, son 5 ildə ən yüksək göstəricidir:** "Bu isə göstərir ki, sistem tam çöküş vəziyyətində deyil, amma yalnız yüksək nəticə göstərən azlıq üzərində qurulan struktur geniş kütləyə tətbiq oluna bilmir. Sistem bütün şagirdlər üçün eyni imkan və nəticə mexanizmini təmin edə bilmir. Dünya təcrübəsində, xüsusilə Estoniya, Sinqapur və Cənubi Koreya kimi ölkələrdə məktəb təhsilinin gücü ilə ali məktəbə qəbul edilənlərin faizi 85-90%-ə çatır. Həmin ölkələrdə məktəb repetitorun alternativi deyil, əsas təhsil mənbəyidir. Müəllim hazırlığı, məktəbdaxili qiymətləndirmənin etibarlılığı və məktəbin funksional resursları elə formalaşdırılıb ki, əlavə təhsil tələbatı yalnız istisna hallarda ortaya çıxır. Azərbaycanda isə məktəb sadəcə formal təhsil "çətiri" rolunu oynayır və real bilik yükünü repetitorlar daşıyır.

Bakı məktəblərində bu vəziyyəti dəyişmək üçün təhsil siyasətində struktur islahatları həyata keçirilməlidir. İlk növbədə məktəbin akademik yükü və nüfuzu bərpa olunmalı, təmayüllü siniflərə dair konkret standartlar müəyyən olunmalı və icrasına nəzarət gücləndirilməlidir. Müəllimlərin sertifikasiya nəticələrinə əsasən, məktəblərdə rotasiya, mentorluq və təlim mexanizmləri tətbiq olunmalı, yüksək nəticə verən məktəblərin təcrübəsi sistemləşdirilib digərlərinə yayılmalıdır. Məktəbdaxili qiymətləndirmə ilə DİM imtahan nəticələri arasında uyğunluq təmin olunmalı, məktəblər ictimai hesabatlılığa cəlb olunmalı və məktəbdəki real keyfiyyət göstəriciləri açıq paylaşılmalıdır. Əgər bu dəyişikliklər aparılmazsa, Bakı kimi ölkənin ən potensiallı təhsil mühitində belə, hər iki abituriyentdən biri 300 bal həddini aşa bilməyəcək və bu, həm ali təhsilin kadr keyfiyyətinə, həm də ölkənin inkişafına ciddi mənfi təsir göstərəcək".

❑ **Afaq MİRAYİQ, "Yeni Müsavat"**



## Qəbul imtahanlarının II cəhdinin tarixi bilindi

**Qəbul imtahanının II cəhd üzrə imtahan tarixləri açıqlanıb. II və III ixtisas qrupları üzrə 6 iyul, I və IV ixtisas qrupları üzrə isə 13 iyulda imtahan həyata keçiriləcək.**

Həmçinin Coğrafiya fənni üzrə əlavə imtahanın tarixi 13 iyuldur. Qeyd edək ki, qəbul imtahanlarının ikinci mərhələsinin II cəhdində iştirak etmək üçün qeydiyyat 26 may-8 iyun tarixində həyata keçiriləcək.

## Paytaxtın ən yaxşı məktəbləri açıqlandı - siyahı

**2024-cü ildə Bakı şəhərindəki ümumtəhsil məktəblərini bitirərək attestat qiymətləri "əla" olan abituriyentlərindən 3.95%-i 200 baldan aşağı nəticə göstərib.**

Bu barədə Modern.az-ın Dövlət İmtahan Mərkəzindən (DİM) əldə etdiyi məlumatda bildirilib.

Rəsmi məlumata görə, ötənilki qəbul imtahanlarında 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər cəmi 50.44%-dir.

Qəbul imtahanlarında 315 məktəbin məzunu iştirak edib.

Respublika üzrə yaxşı məktəblərin sırasına bu il Bakı şəhərinin aşağıdakı təhsil ocaqlarının adları düşüb:

İ.Əfəndiyev adına "Elitar" gimnaziya;
160 saylı klassik gimnaziya;
Humanitar fənlər təmayüllü məktəb-lisey;
Texniki humanitar lisey;
2 saylı texniki-humanitar lisey;
147 saylı texniki-humanitar təmayüllü lisey;
İ.Hacıyev adına "Tərəqqi" liseyi;
"Zəngi" liseyi;
291 saylı Ekologiya liseyi;
287 saylı "Zəkalar" liseyi;
"Ankara Məktəbi" məktəb-liseyi;
62 saylı məktəb-lisey;
70 saylı məktəb-lisey;
220 aylı məktəb-lisey;
145 saylı tam orta məktəb;
161 saylı tam orta məktəb;
260 saylı tam orta məktəb.

## Naxçıvanda yeni nazir təyinatı

**Naxçıvan Muxtar Respublikasına iqtisadiyyat naziri təyin edilib. Bu barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədov sərəncam imzalayıb. Sərəncama əsasən, Naxçıvan Muxtar Respublikası İqtisadiyyat naziri vəzifəsinə Kazım Hüseynəliyev təyin edilib.**

# Paşinyana qarşı impiçment hazırlığı

## Ermənistanda seçkilər yaxınlaşdıqca “rus müxalifəti” iqtidar əleyhinə yeni proses başladır, məşhur sorğu mərkəzi də xalqın 80 faizinin baş nazirə güvənmədiyini bildirir; bəs iqtidarda qələbəyə əminlik haradandır?

**Ermənistan müxalifəti bu dəfə də baş nazir Nikol Paşinyana impiçment tətbiq etməyə hazırlaşır. Müxalifətçi deputat, Respublikaçılar Partiyasının üzvü Hayk Mamicanyan NEWS.am-ın müxbirinə müsahibəsində belə deyib. “Biz həmişə, o cümlədən bütün küçə hərəkatları zamanı demişik ki, impiçment Paşinyanı devirmək üçün ən yaxşı vasitədir”, - Mamicanyan söyləyib. Onun dediyindən belə çıxıb ki, müxalifət Paşinyanın könüllü istefasını gözləmir və küçə mübarizəsi ilə postundan gedəcəyini də qeyri-mümkün hesab edir. Siyasətçi “Mənim şərəfim var” blokunun fraksiyasının hökumət başçısı postuna namizədinin olmadığını, lakin heç bir siyasi ambisiya olmadan bu məsələ ilə bağlı müzakirələrə başlamağa hazır olduğunu bildirib.**



“Əvvəllər siyasi qüvvələr küçə hərəkatı vasitəsilə impiçmentə nail olmaq üçün situasiya yaratmağa çalışırdılar, indi impiçmentdən başlayaraq əksini etməyə cəhd edilir. Başa düşdüyümə görə, təşəbbüskarlar 36-dan çox imza toplamaq təklif edirlər ki, hakim "Mülki Müqavilə" partiyasından olan deputatlara təzyiq göstərmək məqsədilə küçə hərəkatını aktivləşdirməyə vaxt olsun, onlar təşəbbüsə qoşulsunlar", - deputat bildirib.

“Ermənistan əhalisinin təxminən 80%-i indiki hakimiyyətin siyasətini dəstəkləmir. Hesab edirəm ki, 2026-cı ildə "Mülki müqavilə"nin öz hakimiyyətini davam etdirməsi ehtimalı praktiki olaraq qeyri-realdır". Bu isə “Gallup”un Ermənistan nümayəndəliyinin rəhbəri Aram Navasardyana aid sözlərdir. Onun dediyinə görə, seçkilər zamanı hakimiyyətin istifadə edəcəyi hiylələrə, qanun pozuntularına baxmayaraq, onların əksəriyyətin səsini qazanması mümkün olmayacaq. Sitat: “Hakimiyyətin demək olar ki, hər gün müstəqil və şəffaf seçkilər keçirdiyini bəyan etmələrinə baxmayaraq, reallıq tamamilə bunun əksidir”.

Bu arada, Ermənistanın sabiq prezidenti Robert Köçəryan müxtəlif siyasi qüvvələrə birləşməyi təklif edib. Keçmiş dövlət başçısının birlik mesajı çox güman ki, mümkün növbədənkənar seçkilərə hesablanıb. Erməni ekspertlər o fikirdədir ki, Köçəryan Moskvanın əmrlərini icra edir və Paşinyana seçkilərdə hər cür əngəl yaratmaq missiyası ona tapşırılıb. Çünki o, həm də Putinin Ermənistan coğrafiyasında ən yaxın adamıdır.

“Bizim məqsədimiz Ermənistanda hakimiyyət dəyişikliyinə nail olmaqdır”. Bunu sabiq prezident, Respublika Partiyasının sədri Serj Sərkisyan hazırkı iqtidar barədə danışarkən deyib. Sərkisyan da o fikirdədir ki, əhalinin 80%-i Paşinyanı satqın hesab edir.

Ermənistan parlamentinin spikeri Alen Simonyan isə Köçəryanı “rus casusu statusuna malik şəxs” adlandırıb. Spiker həmçinin bəyan edib ki, bu həftə Ermənistanda parlament seçkiləri keçirilərsə, hakim “Mülki Müqavilə” partiyası səslərin 50%-dən çoxunu qazanacaq. “Bugünkü sorğular hakim partiyanın birinci yerdə olduğunu və əhalinin ən böyük dəstəyini qazandığını göstərir. Əminəm ki, seçkilər bu cümə günü keçirilsə, Mülki Müqavilə 50%+ qazanaraq qalib gələcək", - Simonyan vurğulayıb.

Beləliklə, seçkilər yaxınlaşdıqca siyasi ehtiraslar alovlanır, ölkədə bir böhran yaşandığı, tərəflərin biri-birini ittiham etdiyi müşahidə olunur.

Bəs hökumətdə seçkini qazanmaq əminliyi haradandır? Ümumiyyətlə, Paşinyanı devirmək mümkün olacaqmı? Qeyd edək ki, parlament seçkiləri gələn il keçiriləcək.

**Siyasi ekspert Azad Məsiyev**in “Yeni Müsavat”a bildirdiyinə görə, Ermənistanda hələ Köçəryan və Sərkisyan iqtidarları dövründən Birləşmiş Ştatların "Soros" Fondu kök salmışdı. Onun fikrincə, bu ölkədə "Soros"dan başqa bir sıra Qərb və ABŞ fondları da fəaliyyət göstərirdi: “Onlar əsasən Mərkəzi Kəşfiyyat İdarəsinin və Dövlət Departamentinin nəzarətində olan fondlar idi. Ondan sonra həmin qüvvələr Nikol Paşinyanı iqtidara gətirdilər. Buna qədər isə Nikol Paşinyan sadə jurnalist idi və Mərkəzi Kəşfiyyat İdarəsi tərəfindən məxfi əməkdaşlığa cəlb olunmuşdu. Amma onun bacarığı və sədaqəti yoxlanıldı, nəticədə düyməyə basıldı, bu şəxsin hakimiyyətə gəlməsinə kömək edildi. İndi isə Ermənistanda bütün strukturlar "soros"çuların nəzarətindədir. Bu baxımdan hazırkı iqtidar əminliklə danışır ki, seçkilər keçirilərsə, qalib gələcəklər”.

**Ekspert hesab edir ki, əvvəla, Ermənistan demokratik dövlət deyil və orada hakimiyyət xalqın iradəsi ilə formalaşmır:** “İrəvanda seçkini "soros"çular keçirir və onlar müəyyənləşdirir. Ona görə parlamentin sədri belə arxayınlaşıb danışır ki, müxalifətin gücü yoxdur və iqtidar seçkini udacaq. Amma spikerin fikirlərində həqiqət payı var - "soros"çular seçkilər zamanı onlara dəstək verəcək və bu qüvvələr hakimiyyətdə saxlanacaq”.

**A.Məsiyevin fikrincə, ümumilikdə Ermənistanda siyasi savaş gedir:** “Hazırda rusiyayönümlü lobbi ilə qərbpərəst erməni lobbisinin rəqabəti güclənib. Sadəcə, ermənilərin strateji planlaşdırma mərkəzləri hazırkı qlobal hadisələrin nəticələrindən asılı olaraq, Ermənistanı iki qütbdən birinin nəzarətinə verəcək. Yeni Ukrayna müharibəsində Rusiya birmənalı şəkildə qalib gələrsə, bu proseslər Ermənistanda da öz təsirini göstərəcək. Yox, əks təqdirdə, "soros"çular bu regionda qalacaqlar. Ona görə də həmin vaxta qədər Birləşmiş Ştatlar Paşinyanı yenə hakimiyyətdə saxlamağa çalışacaq ki, ondan Cənubi Qafqazda istifadə etsin”.

**Politoloq Qabil Hüseynli hesab edir ki, ermənilər digər partiyalarla müqayisədə Paşinyanın partiyasını dəstəkləyirlər. Analitik Ayna.az-a bildirib ki, İkinci Qarabağ müharibəsindən sonra “Mülki Müqavilə”nin reytinqində geriləmə olub:** “Amma nə qədər reytinq düşsə də, yenə də ermənilərin əksəriyyəti Paşinyanın hakimiyyətini dəstəkləyirlər. Əslində bu, məcburiyyətdən dəstəkləmə sayıla bilər. Çünki Paşinyanın alternativlərinə, hazırkı ən qatı müxalifət olan "Qarabağ klanı" adlandırılan qüvvələrə ermənilər daha çox nifrət edirlər. “Qarabağ klanı” deyilən müxaliflərin başında keçmiş prezidentlər, Xocalı cəlladı olan Robert Köçəryan və Serj Sərkisyan dayanır. Bu canilər ermənilərin özlərinə də hakimiyyətdə olduqları illərdə əzablar veriblər. Talançılıq, özbaşınalıq Köçəryan və Sərkisyan cütlüyünün hakimiyyəti zamanı tüğyan edirdi. Hesab edirəm ki, erməni xalqının 50 faizdən çoxunun Paşinyanı dəstəklədiyi fikri yanlışdır. Simonyan bu iddiasında yalan danışır. Beynəlxalq sorğular da, yerli sorğular da göstərir ki, Paşinyana ermənilərin təxminən 25-30 faizi dəstək verir. Amma Köçəryana, Sərkisyana dəstək verənlərin faizi 10-un altındadır”.

❑ **Emil SALAMOĞLU, “Yeni Müsavat”**

## 9 mayda Moskvaya getmə!

**Ermənistanın baş naziri Nikol Paşinyanın mayın 9-da İkinci Dünya müharibəsində qələbənin 80 illiyi ilə əlaqədar Moskvada keçiriləcək tədbirlərdə iştirakı naməlum olaraq qalır. Bu barədə “Hraparak” qəzeti məlumat yayıb.**

“Baş nazirin dəftərxanası Nikol Paşinyanın mayın 9-da Moskvada keçiriləcək paradda iştirak edib-etməyəcəyini açıqlamadan yayınır. Yalnız parlamentin sədri Alen Simonyan Paşinyanın iştirakının düzgün olacağı fikrini bildirib. Məlumata görə, ləngimə hakim partiya daxilindəki fikir ayrılıqları ilə bağlıdır. Partiyanın "soroşçu qanad"ı Moskvaya getməyə qarşıdır. Məsələ həmçinin paradda iştirakın nəticəsiz qalmayacağını bəyan edən xarici tərəfdaşların (Avropa İttifaqının) təhdidləri ilə bağlıdır.

Hindistan, Macarıstan və Slovakiya baş nazirlərinin iştiraklarını ləğv etməsindən sonra Paşinyanın vəziyyəti daha da mürəkkəbləşib. Avropa İttifaqının xarici siyasət xidmətinin rəhbəri Kaya Kallasın təhdidləri əslində öz nəticəsini verib. Bununla belə, Paşinyan fors-major hal baş verməsə, getməyə meyllidir", - erməni nəşri bildirir. Rusiyanın Ermənistanda bir hərbi bölməni parada göndərmək təklifinə gəlincə, “Hraparak” yazır ki, İrəvan Azərbaycandan fərqli olaraq Moskvaya hərbçilər göndərməyəcək.

## Rus səfiri ilə görüşdə nə baş verib?

**Ermənistan parlamentinin sədri Alen Simonyan Rusiya səfiri Sergey Kopırkinlə görüşdən dərhal sonra Moskva əleyhinə sərt bəyanatlar verib. O bildirib ki, Ermənistana qarşı hibrid müharibə aparılır, xüsusən də Rusiya tərəfindən bunun üçün böyük pullar xərclənir. Spiker rusiyalı ekspertlərin yerli telekanallarda Ermənistanda hakimiyyət dəyişikliyi və mitinqlərə çağırışlar etdiyini də söyləyib.**

“Spiker bu bəyanatı Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkinlə görüşdən dərhal sonra verib. Maraqlıdır, Kopırkin Simonyana nəyi çatdırıb ki, onun son vaxtlar yumşalan anti-Rusiya ritorikasını yenidən sərtləşdirib”, - erməni mediası qeyd edir.

Mənbə əlavə edir ki, görüşlə bağlı məhdud rəsmi məlumat var. Həmin məlumata görə, həmsöhbətlər ikitərəfli, eləcə də parlamentlərarası əlaqələrlə bağlı mövzular ətrafında fikir mübadiləsi aparıb. Həmçinin Rusiya Federasiya Şurasının sədri Valentina Matviyenkonun Ermənistana gözlənilən rəsmi səfəri ilə bağlı gündəlikdəki məsələlərə də toxunulub.

# Rusiya ilə gərginləşən münasibətlər - əsas problem nə?

Bakı ilə Moskva arasında bir neçə mövzuda açıq qalan məsələ var; lakin hər iki tərəfin səylərinə baxmayaraq, bu gərginliyi aradan qaldırmaq olmur - izah

**“Əgər Rusiya-Azərbaycan münasibətlərindən danışırıqsa, mənə elə gəlir ki, indi hər şey çox yaxşı inkişaf edir. Tanrı qismət eləsin ki, bu, belə də davam etsin. Moskvadan yola düşərkən Vladimir Vladimiroviçlə görüşmək imkanım oldu. O da Sizin haqqınızda çox səmimi şəkildə yaxşı, düzgün sözlər dedi. Məndən xahiş etdi ki, 80 illik yubileyə dəvəti çatdırım və Siz bu mühüm tarixi qeyd etmək üçün Moskvaya səfər edə biləsiniz”. “Yeni Müsavat” xatırladır ki, bu fikirlər Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirillə aiddir. O, Bakıda Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ilə görüşdə belə söyləyib.**



Kirill daha sonra Putin haqda deyib: “Bizim Prezidentimiz də siyasi jest naminə öz əqidəsini dəyişməyə meyilli deyil. O, ya susacaq, ya da düşündüyünü açıq şəkildə deyəcək. Vladimir Vladimiroviçlə ünsiyyət təcrübəsi olan biri kimi deməliyəm ki, onun sözlərində belə səmimi rəğbət və belə açıqlıq hiss etdim, buna şahidlik edə bilərəm”.

Krill Bakıda olarkən deputat Azər Badamovun Rusiya ərazisinə buraxılmaması yenidən diqqəti iki ölkə arasında münasibətlərdəki gərginliyə yönəltdi. Xarici İşlər Nazirliyinin açıqlamasından bəlli oldu ki, Rusiya hər hansı ilkin xəbərdarlıq və ya məlumat vermədən heyətin tərkibində olan deputat Badamovu Moskvada hava limanında saxlayaraq, onun ölkəyə girişinə qadağa qoyulduğunu bildirib.

O, bir müddət Moskva hava limanında gözlədildikdən sonra ölkəmizə geri qaytarılıb. XİN-in rəsmisi onu da bildirib ki, bu qərarın səbəbləri barədə izahat verilməyib. Açıqlamada “Azərbaycan Rusiyanın verdiyi bu qərarı qeyri-dost addım hesab edir” deyə bildirilir.

Bu gedişat göstərir ki, Rusiya ilə Azərbaycan arasında soyuqluq davam edir. Bir çox şərhçilər böhrana səbəb kimi 25 dekabr 2024-cü il tarixində Qazaxıstanın Aktau şəhəri yaxınlığında Azərbaycan Hava Yollarına məxsus təyyarənin qəzaya uğramasını göstərir. Doğrudan da Moskvanın bu faciəyə reaksiyası ilkin dövrdə Bakını qane etmədi.

Bunun ardınca “Rossotrudniçestvo”nun Azərbaycandakı nümayəndəliyi olan Rusiya İnformasiya-Mədəniyyət Mərkəzi - “Rus evi”nin hüquqi şəxs qismində qeydiyyatının mövcud olmadığı və təşkilatın Azərbaycan qanunvericiliyini ciddi şəkildə pozduğu barədə Rusiya tərəfinə məlumat verildikdən sonra 3 fevral 2025-ci il tarixində “Rus evi”nin fəaliyyətinə xitam verildi.

Həmçinin ötən həftəsonu Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiyanın keçirdiyi ictimai müzakirələrdə komissiyanın sədri Ramid Namazov fevralın 20-də bir sıra media resurslarımıza qarşı kiberhücumlara görə Rusiyanı ittiham edib. Komissiya sədri bildirib ki, ekspertiza nəticəsində istər hücum zamanı istifadə edilən texniki üsullar, istərsə də davranış modelləri hücumun Rusiya ilə əlaqəli olan APT29 (“Cozy Bear”), yəni “Rahat Ayı” (digər adları isə Midnight Blizzard, the Dukes) qrupuna məxsus olduğu müəyyən edilib. Bu qrup xüsusi əhəmiyyətli kiberəməliyyatlar həyata keçirən mütəşəkkil dəstədir.

O bildirib ki, kibercasusluqla məşğul olan APT29-un fəaliyyəti əsasən hökumət qurumlarını, xarici diplomatik nümayəndəlikləri, habelə siyasət, müdafiə, enerji, media və digər kritik sahələri hədəf almaqdan ibarətdir.

**Hücumun motivinin də haradan qaynaqlandığının aydın olduğunu qeyd edən komissiyanın sədri bildirib**: “Motiv - fevralın 3-də ölkəmizdə hüquqi şəxs qismində qeydiyyatı olmayan və qanunvericiliyin tələblərini ciddi şəkildə pozduğu üçün fəaliyyətinə xitam verilən Rusiya İnformasiya-Mədəniyyət Mərkəzi - "Rus evi" və o vaxt üçün ləğv edilməsi ilə bağlı söhbətlər gəzən “Rossiya Segodnya”nın (Sputnik) Azərbaycandakı nümayəndəliyi idi. Məhz bu proseslərdən dolayı siyasi motivli bu kibermüdaxilə hadisəsi baş verib".

Yeri gəlmişkən, TASS agentliyi mənbəyə istinadla xəbər yayıb ki, Badamovun ölkəyə girişinə qadağa qoyulmasına səbəb guya dəfələrlə anti-Rusiya və rusofob açıqlamalar verməsi olub. “Badamova qarşı görülən tədbirlərin "şəxsi xarakter daşıdığı" bildirilir, Rusiya tərəfinin Rusiya-Azərbaycan münasibətlərinin strateji tərəfdaşlıq və müttəfiqlik ruhunda inkişaf etdirilməsi ilə bağlı dəyişməz niyyətinə təsir göstərmədiyi vurğulanır. “Rusiya dost ölkələrlə münasibətlərdə "stop-list" praktikasının tərəfdarı deyil. Məlum olduğu kimi, əvvəllər də bir sıra rusiyalı deputatlara qarşı Azərbaycana giriş qadağası qoyulub. Sonuncu belə hal Dövlət Dumasının deputatı Nikolay Valuyevlə bağlı olub. Moskva hesab edir ki, bu cür məsələlərin media vasitəsilə iddialar səsləndirməklə deyil, diplomatik kanallarla həll edilməsi düzgündür", - mənbə bildirib.

Eyni məzmunlu xəbəri eyni vaxtda “RİA Novosti” agentliyi də yayıb. Göründüyü kimi, açıqlamalarda Azər Badamovun konkret hansı fikirlərindən söhbət getdiyi bəlli olmur.

Bu proseslə sinxron şəkildə davam edən digər məsələ isə “Rus evi” ilə bağlıdır. Belə ki, mayın 5-də Rusiyanın Azərbaycandakı səfiri Mixail Yevdokimov "Rus evi"nin fəaliyyətinin bərpası imkanlarının müzakirə edildiyini açıqlayıb. “Azərbaycann tələbi ilə "Rus evi" fəaliyyətini dayandırıb. Amma mənə elə gəlir ki, biz bu məsələ ilə bağlı müsbət dialoqa başlamışıq. "Sputnik" agentliyinin işi ilə bağlı da müzakirələr aparılır. Moskva qarşılıqlı məqbul həll yolu tapacağını gözləyir", - səfir bildirib.

Yəni faktiki olaraq, Bakı-Moskva xəttində ikili, ziddiyyətli, olduqca müəmmalı, gah qabaran, gah çəkilən proseslər cərəyan etməkdədir. Bəs hər iki tərəfin səylərinə baxmayaraq, bu münasibətlərdəki gərginliyi niyə aradan qaldırmaq mümkün olmur? O halda əsas problemlər nədir?

**Politoloq Murad Sadəddinov “Yeni Müsavat”a qeyd etdi ki, Rusiya təkcə Azərbaycanla münasibətlərdə belə siyasət yürütmür:** “Rusiyanın qonşularını, hətta ittifaq dövləti Belarusu nəzərə alsaq, heç də bu ölkələrlə əlaqələri həmişə yaxşı olmayıb. Hər zaman Rusiya öz maraqlarını reallaşdırmaq üçün qarşı tərəflə bağlı xoşagəlməz tədbir görür. Belarus Prezidenti barəsində belə zaman-zaman bir neçə seriyalı, ittiham xarakterli filmlər nümayiş etdirilib. O cümlədən Qazaxıstan, Gürcüstan və başqa qonşularına qarşı təzyiqlər göstərib. Ona görə də Rusiya-Azərbaycan münasibətlərinin niyə tam yaxşılaşmadığını təhlil edəndə bu nümunələri də yaddan çıxarmalıyıq”.

**Ekspertin sözlərinə görə, AZAL təyyarəsinin vurulmasından sonra rəsmi Moskva Bakının tələblərini tam yerinə yetirməmiş, bu dəfə deputatı ölkədən deportasiya etməklə daha bir xoşagəlməz hərəkətə yol verib:** “Halbuki əvvəlcədən nümayəndə heyətinin siyahısı olur, Rusiya kimlərin gələcəyini bilir. Deməli, qabaqcadan diplomatik yolla deputatın səfərini əngəlləmək olardı və mediada da işıqlanmazdı. Amma məqsədli şəkildə bunu yaydılar ki, ictimaiyyət xəbər tutsun. Hesab edirəm ki, Rusiyanın aqressiv siyasətinin səbəbi özündədir. Azərbaycan Rusiya ilə əlaqələri hər zaman beynəlxalq hüquq normalarına və qonşuluq prinsiplərinə uyğun qurub, problem qarşı tərəfdən qaynaqlanıb”. M.Sadəddinovun fikrincə, görünür ki, Rusiyada hələ də anti-Azərbaycan dairələr var və münasibətləri pozmağa çalışırlar.



❑ **Emil SALAMOĞLU, “Yeni Müsavat”**



## Moskvadakı paradda iştirak edəcək ölkələr - siyahı

**Moskvada faşizm üzərində Qələbənin 80 illiyinə həsr olunmuş Qələbə Paradında 29 xarici ölkə lideri iştirak edəcək. APA xəbər verir ki, bu barədə Rusiya Prezidentinin köməkçisi Yuri Uşakov bildirib.**

Onun sözlrinə görə, KXDR 9 May Qələbə Paradında səfir səviyyəsində təmsil olunacaq:

“Mayın 8-də axşam Kremldə xarici nümayəndə heyətlərinin başçıları üçün böyük ziyafət keçiriləcək. Biz çoxsaylı xarici qonaqlar dəvət etmişik. Gözləyirik ki, Qələbə Paradında dəvət etdiyimiz ölkələrdən 29 lider iştirak edəcək”.

Kreml təmsilçisi qeyd edib ki, bunlar Azərbaycan, Ermənistan, Belarus, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan, Özbəkistan, Abxaziya, Bosniya və Herseqovina, Braziliya, Burkina-Faso, Venesuela, Vyetnam, Qvineya-Bisau, Misir, Zimbabve, Çin, Konqo, Kuba, Laos, Monqolustan, Myanma, Fələstin, Serbiya, Slovakiya, Ekvatorial Qvineya, Efiopiya və Cənubi Osetiyadır.

Uşakov prezident Putinin Moskvaya gələcək xarici ölkələrin dövlət başçıları ilə ikitərəfli görüşlərinin keçiriləcəyini də söyləyib. Qeyd edib ki, Rusiya lideri Çin, Özbəkistan, Serbiya, Slovakiya, Konqo, Monqolustan, Vyetnam və Kuba liderləri ilə ikitərəfli danışıqlar aparacaq.

YENİ MÜSAVAT
N 78 (8688) 7 may 2025

# ABŞ səfirinin Bakıda boş qalan kürsüsü

## Səfir təyinatının gecikməsi bu dəfə nə ilə bağlıdır?

**ABŞ-ın Azərbaycandakı səfiri postu artıq 5 aya yaxındır ki, boşdur. Yada salaq ki, Mark Libbi yanvar ayında səhhətində olan problemlərlə əlaqədar istefa verib.**

Hələlik ABŞ-ın Azərbaycanda səfiri yoxdur. Əvvəllər ABŞ Azərbaycana səfir təyinatını müxtəlif səbəblərdən gecikdirib. Məsələn, Mark Libbinin təyinatına qədər 1 ildən çox Azərbaycandakı səfirlik başsız qalıb.

Qeyd edək ki, bundan əvvəl də ABŞ Azərbaycana səfir təyinatını gecikdirib. Buna səbəb kimi Senatda olduqca güclü təsirləri olan erməni lobbisinin fəaliyyəti göstərilir. 2009-cu ilin yanvarında ABŞ-ın Azərbaycandakı səfiri Enn Dörsinin səlahiyyət müddəti başa çatdı. Növbəti səfir Riçar Morninqstarın təyinatı bundan 3 il sonra təsdiqləndi.



Bu müddət ərzində prezident Barak Obama Metyu Brayzanı Senatın icazəsi olmadan təyin etdi və bir ildən sonra Senat onun müddətinin uzadılmasına icazə vermədi. Erməni lobbisinin təsiri altında olan senatorlar Azərbaycan və Türkiyə ilə yaxın əlaqələri olduğu üçün Brayzanın səfir təyin edilməsinə razılıq vermədi. Erməni lobbisi ATƏT-in Minsk Qrupunun keçmiş amerikalı həmsədri olan Brayzanın həyat yoldaşının türk olmasını əsas gətirərək onun fövqəladə və səlahiyyətli səfir təyin edilməsinə imkan vermədi.

Ekspertlərə görə, Azərbaycan Tramp administrasiyası ilə qarşılıqlı işgüzar əlaqələr qurub və ABŞ-ın səfir təyinatının bu dəfə də uzanmasının heç bir əsası yoxdur. Üstəlik, ABŞ Senatının hər iki palatasında respublikaçılar əsas söz sahibidirlər və Tramp administrasiyasının istənilən namizədinin Bakıya təyinat almasına ciddi maneə yaradıla bilməz. İndiki halda hər şey Ağ Evin yürütdüyü siyasətdən asılıdır. Səfirin personası hansı cəhətdənsə, Azərbaycana uyğun gəlmirsə, bu zaman həmin səfiri Azərbaycan qəbul etməyə bilər. Diplomatiyada səfir təyinatının gecikdirilməsinin anlamı nə?

Bir sıra müşahidəçilərə görə, ABŞ-ın Azərbaycana səfir təyinatını yubatmasının arxasında iki ölkə arasında münasibətlərdəki Bayden dövründə başlamış soyuqluq dayanır. Vaşinqton bununla Bakıya mesaj göndərir. Belə fikir var ki, səfir təyinatının ləngiməsi və ya bu işə ən azı laqeyd münasibət Dövlət Departamentinin Bakıya mesajıdır. Diplomatiyada bu cür gedişlərə tez-tez rast gəlinir.

**Politoloq Qabil Hüseynli "Yeni Müsavat"a bildirdi ki, əslində ABŞ-ın Azərbaycana səfir göndərməsi əvvəlki təcrübələrlə müqayisədə elə də çox gecikmiş sayılmamalıdır**: "Bundan öncə hətta elə olub ki, səfir təyinatı üç il yubanıb. Lakin indi ABŞ-ın Azərbaycana səfir təyinatının bu dəfə də uzanmasının heç bir əsası yoxdur, ABŞ-ın yeni administrasiyası ilə Bakı arasında Co Bayden administrasiyası dövründə müşahidə olunan soyuqluq və gərginlik də yoxdur. Səfir Mark Libbinin səfir postundan getməsindən 5 aya yaxın vaxt keçir. Bu müddətin təxminən yarısı Azərbaycana qarşı sərt mövqeyi ilə seçilən Co Bayden administrasiyasının dövrünə düşür. Həm təcrübə göstərir ki, adətən Amerika səfir təyinatını dərhal bir-iki ay ərzində həyata keçirmir. Burada prosedurların çox olması və vaxt aparması da rol oynayır. Həm də Co Bayden hökuməti gethagetdə Azərbaycana dərhal səfir təyin etməzdi və etmədi də. Təyinat saxlandı Donald Tramp administrasiyasına. Trampın da prezident fəaliyyətinə başlamasından üç ay yarım keçir. Bu üç ay yarım ən çətin və işlərin sıx olduğu dövrdür. Trampın qarşısında bu müddətdə komandanı formalaşdırmaq, Ukrayna müharibəsi ilə məşğul olmaq kimi daha böyük, daha qlobal məsələlər dururdu. Bu məsələlərin bir hissəsi hələ də həllini tapmayıb. Belə bir gərgin vaxtda səfir təyinatına vaxt ayrılmaması müəyyən mənada təbii və gözləniləndir. Lakin artıq bundan sonrakı zamanda Tramp tərəfindən ABŞ-ın ölkəmizə yeni səfirinin təyin edilməsinin uzanması üçün ciddi maneə yoxdur. Öncəki zamanlarda Senatda üstün mövqedə olan Demokratlar, ermənipərəstlər təyinata maneələr yaradırdılar. Lakin artıq hər iki palatada respublikaçılar əsas söz sahibidirlər. Səfir təyinatı bu dəfə asanlıqla həyata keçirilə bilər. Səfirin təyinatında, əgər o, prinsip etibarilə Azərbaycanda fəaliyyət göstərməyə layiqdirsə, iki ölkə arasında hər hansı problem yaratması ilə bağlı ehtimallar yoxdursa, onun təyinatında, qənaətimə görə, heç bir problem olmamalıdır. Tramp administrasiyası tərəfindən təyinat olarsa, onun qarşısını almaq üçün heç bir ehtimal yoxdur".

**Politoloq qeyd etdi ki, səfir təyinatını adətən ABŞ hökumətindəki mürəkkəb prosedur və erməni lobbisinin təsirləri yubadırdı. Prosedurlar şübhəsiz ki, həmişəki kimi qalır, ancaq erməni lobbisinin təsiri Demokratların üstün olmaması üzündən azalıb**: "Amerikada bu kimi təyinatların mürəkkəb prosedurları var. Prezidentin namizədini Senat təsdiqləməlidir. Bu isə müəyyən zaman və müzakirələr deməkdir. Güman etmirəm ki, burada hər hansı başqa bir səbəb olsun. Yəqin ki, elə bir namizəd seçməyə çalışırlar ki, həm bölgəni yaxından tanıyan, problemləri bilən diplomat olsun, həm də Senatdan keçəndə problemlərlə qarşılaşmasın. Çünki hazırda bu region xüsusilə çox mürəkkəbdir. Ukrayna müharibəsi bütün bölgəyə təsir göstərir. İranla, Suriya ilə bağlı gərgin vəziyyət davam edir. ABŞ-ın Türkiyə ilə razılığa gələ bilmədiyi məsələlər var. Belə bir vəziyyətin hökm sürdüyü dövrdə regionun vacib ölkələrindən olan Azərbaycana təyin olunacaq səfir təcrübəli diplomat olmalıdır. Əslində səfirin təyinatının ləngiməsi ABŞ hökuməti üçün çətinlik yaradır. Bu baxımdan, Bakıda səfir postunun boş qalmasının arxasında siyasi anlaşılmazlıqların olduğunu düşünmürəm. Səfirin təyin olunmaması ABŞ hakimiyyətinin özünə ziyandır. Çünki səfir fəaliyyət göstərdiyi ölkədə Amerikanın gözü və qulağı deməkdir. Həmin ölkələrdə baş verənlərlə bağlı düzgün qərar vermək üçün səfirin rəyinə, ümumiyyətlə, səfirliyin normal işləməsinə böyük ehtiyac var. Bu nöqteyi-nəzərdən güman etmirəm ki, Azərbaycana səfir təyinatının gecikdirilməsinin hər hansı subyektiv səbəbi var. Təyinatın gecikməsi daha çox texniki xarakterlidir və yaxud da ölkənin özünün siyasi ənənələri ilə bağlı olan məsələdir. Yəqin ki, yaxın zamanlarda ABŞ Azərbaycana yeni səfirini göndərəcək".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

## Konqresdən Gürcüstanla bağlı qərar

**ABŞ Konqresinin Nümayəndələr Palatası Gürcüstanla bağlı "MEGOBARI Aktı"nı (Cavabdehlik, Dözümlülük və Müstəqillik İnşası üçün Gürcüstanın Seçimlərinin Səfərbər edilməsi və Artırılması Aktı) qəbul edib.**

APA-nın verdiyi xəbərə görə, qanun layihəsini 168 respublikaçı və 181 demokrat olmaqla, 349 konqresmen dəstəkləyib, 42 nəfər əleyhinə səs verib, 42 nəfər isə bitərəf qalıb.

Sənəddə ABŞ-Gürcüstan əlaqələrinin, o cümlədən bütün yardım proqramlarının tam şəkildə yenidən nəzərdən keçirilməsi, gürcü xalqının Avroatlantik inteqrasiyasına dəstək verilməsi, həmçinin ABŞ Prezidentinə Gürcüstanı bu istiqamətdən uzaqlaşdırmağa çalışan "Gürcü Arzusu" partiyasının rəsmilərinə və onların dəstəkçilərinə qarşı sanksiya tətbiq etməsi üçün çağırışlar əks olunub.

Qanun layihəsinin qüvvəyə minməsi üçün növbəti mərhələdə ABŞ Senatı tərəfindən təsdiqlənməsi tələb olunur.

## ABŞ-İran danışıqlarının vaxtı açıqlanıb

**Tehranın nüvə proqramı ilə bağlı ABŞ və İran arasında dördüncü danışıqlar raundu bu həftəsonu - 10-11 may tarixlərində baş tuta bilər. Bu barədə "Axios" portalı ABŞ Prezidentinin xüsusi nümayəndəsi Stiven Uitkoffun sözlərinə istinadən yazıb.**

"Uitkoff bildirdi ki, ABŞ bu həftəsonu İranla nüvə məsələsi üzrə dördüncü raundun keçirilməsini razılaşdırmağa çalışır", - deyə jurnalist qeyd edib.

## NATO və Aİ Rusiya ilə hərbi toqquşma hazırlayır

**NATO və Avropa İttifaqı daxilində Qərbin Rusiya ilə birbaşa hərbi qarşıdurmaya hazırlanmasına yönəlmiş proqramlar həyata keçirilir. Bu barədə Rusiya Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqu "Rossiyskaya qazeta" üçün yazdığı məqalədə bildirib.**

Onun sözlərinə görə, Qərbin aqressiv addımları və NATO-nun Rusiya sərhədlərinə doğru fasiləsiz irəliləməsi rusofob ritorika ilə əsaslandırılır.

## Britaniya və Fransa Putinə müraciət etdi

**Böyük Britaniyanın baş naziri Keir Starmer Fransa Prezidenti Emmanuel Makronla telefon danışığı aparıb, liderlər Ukraynadakı vəziyyəti müzakirə ediblər. Böyük Britaniya hökumətinin saytında yayılan məlumatda belə deyilir.**

Orada qeyd olunur ki, Britaniya və Fransa başçıları Rusiyanı 30 günlük atəşkəslə razılaşmağa çağırıblar.

Böyük Britaniyanın baş naziri qeyd edib ki, Ukrayna dinc dialoqa hazır olduğunu nümayiş etdirir və müharibənin dayandırılmasında maraqlı tərəf olaraq qalır.

Məlum olduğu kimi, Rusiya Amerika Birləşmiş Ştatlarının təklif etdiyi və Ukraynanın dəstəklədiyi 30 günlük atəşkəs təşəbbüsünü dəstəkləməkdən imtina edib. Əvəzində, Qələbə paradı ilə bağlı 3 günlük atəşkəs bəyan edib, Ukrayna tərəfi də bunu qeyri-ciddi addım və siyasi manipulyasiya hesab edərək, atəşkəsi rədd edib.

# "Amnesty İnternational" Azərbaycandan əl çəkmir

## Bədnam təşkilatın hesabatında absurd ittihamlar yer alıb - hüquq müdafiəçisindən reaksiya

**Azərbaycan "Amnesty İnternational"ın 2025-ci il hesabatında insan hüquqlarının pozulmasına görə tənqid olunub. "Hakimiyyətin qadağaları ölkədə insan hüquqlarına hörməti azaldıb, jurnalistlər, hüquq müdafiəçiləri və fəallar qanuni fəaliyyətlərinə görə həbs olunublar. İşgəncə və digər pis rəftar halları geniş yayılıb", - hesabatda deyilir.**

Hesabatda iddia olunub ki, Qarabağ münaqişəsi ilə bağlı "baş vermiş qanun pozuntularına görə kimsə məsuliyyətə cəlb edilməyib". Söhbət hansı qanun pozuntularından gedir, bəlli deyil. Hesabata görə, "LGBT fərdləri ədalətli yanaşmadan məhrum edilib".

Azərbaycanın Ombudsmanı Səbinə Əliyeva hesabatı həqiqəti əks etdirməyən, birtərəfli, qərəzli sayıb. Səbinə Əliyeva təşkilatın rəhbərinə etiraz məktubu yazaraq bildirib ki, hesabatda Ermənistandan qovulmuş 250 mindən artıq azərbaycanlının qayıdış məsələsi yer almayıb.

O bildirib ki, hesabatda azərbaycanlıların üzləşdiyi mina təhlükəsi və Birinci Qarabağ müharibəsindən bəri itkin düşmüş 4000-ə yaxın azərbaycanlının taleyi ilə bağlı da məlumat verilməyib. Ümumiyyətlə, Azərbaycan hakimiyyəti insan haqları ilə bağlı ünvanına səslənən ittihamları rədd edir və ölkədə heç kəsin fikir ayrılığına görə təqib olunmadığını bəyan edir.

"Amnesty İnternational" indiyə qədər Azərbaycan haqda pozitiv bir detalı qeyd etməyib. Təkcə bu qeyri-hökumət təşkilatı deyil, "Human Rights Watch" və digərləri də eyni qərəzli hesabatlarla çıxış edir. Xüsusən də Qarabağ məsələsi və LGBT mövzusunda tamamilə absurd ittihamlar səsləndirilir. Maraqlıdır ki, Azərbaycan bu təşkilatların hesabatlarına etiraz etsə də, yanaşma dəyişmir. Qərb ölkələri uzun illər ölkələrin daxili işlərinə müdaxilə, öz maraqlarını təmin etmək üçün fərqli adlar altında çoxsaylı təşkilatlar yaradaraq dövriyyəyə buraxıblar. Bu bədnam siyahıya USAİD, NED, "Soros" Fondu ilə yanaşı, "Amnesty İnternational", "Human Rights Watch", "Freedom House", "Transparency İnternational" və s. daxildir.

Adları yuxarıda qeyd olunan təşkilatlar sırasında "Amnesty İnternational" Azərbaycanla bağlı xüsusi qərəzi və ikili yanaşması ilə seçilib. Erməni lobbisinin təsiri altında olan təşkilat işğal dövründə hüquqları pozulan Azərbaycan vətəndaşları ilə bağlı heç bir hesabatla çıxış etməyib. Azərbaycan işğala son qoyduqdan sonra isə Qarabağdan könüllü çıxan ermənisilli insanların müdafiəçisi qismində çıxış etməyə başlayıb.

Bəlkə bu təşkilatlarla əməkdaşlıq əlaqələri düzgün qurulmayıb? Niyə hesabat hazırlayarkən, Azərbaycan sənədlərlə tanış olmağı tələb etmir?

**Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri Çingiz Qənizadə** "Yeni Müsavat"a bildirdi ki, bu təşkilatlar artıq qərəzli hesabatlarla çıxış etməyi ənənəyə çevirib. Bunun bir təzyiq aləti kimi qiymətləndirən hüquq müdafiəçisi qeyd etdi ki, dəfələrlə etiraz məktubu yollanıb, amma yenə də böhtan atmaqdan əl çəkmirlər. Onun fikrincə, Azərbaycanda işgəncə hallarının geniş yayılması haqda ittihamlar əsassızdır və sözügedən təşkilat hər hansı fakta istinad etməyib: "Biz insan haqlarının vəziyyətinin ideal olduğunu iddia edə bilmərik. Sözsüz ki, qanun pozuntuları, həbs-qətimkan tədbirinin seçilməsi və s. hallarla bağlı şikayətlər olur. Ancaq bu müraciətlər araşdırılır, istintaq altında olan şəxslə görüş keçirilir, onların saxlanma şəraitindən məmnunluğu öyrənilir. Yəni bu təşkilatın yaydığı hesabatlar sübut-dəlilsiz, başdan-ayağa yalan, böhtan üzərində qurulub. Əgər obyektivlik olsaydı, rəsmi qurumların mövqeyinə də hesabatda yer verilərdi".




**Ç.Qənizadə xatırlatdı ki, "Amnesty İnternational" 2023-cü ilin sentyabrında Qarabağda silahlı separatçılara qarşı həyata keçirilən hərbi əməliyyata qarşı da çıxıb:** "Biz bu faktı da unutmuruq. Belə təşkilatdan bundan sonra da obyektiv hesabat gözləməyə dəyməz. Bir neçə ay sonra yenə Azərbaycanı ittiham edəcəklər. Çünki vərdişə çevrilib və ölkənin məhkəmə-hüquq sistemində həyata keçirilən islahatları görməzdən gəlirlər. Bu məsələdə bəzi anti-Azərbaycan dairələrin də rolu danılmazdır. Onlar hesabatların hazırlanmasında adıçəkilən təşkilata dəstək verirlər".

Hüquq müdafiəçisi əlavə etdi ki, Azərbaycanı LGBT və Qarabağla bağlı günahlandırmaq isə biabırçılıqdır, açıq şəkildə qara yaxmaq cəhdidir. Ç.Qənizadə dedi ki, bu bədnam təşkilatın anti-Azərbaycan fəaliyyəti COP29-da da özünü büruzə verib.

Xatırladaq ki, Prezident İlham Əliyev ADA Universitetində "Yeni dünya nizamına doğru" mövzusunda keçirilən beynəlxalq forumda bu təşkilatların fəaliyyətinə toxunmuşdu.

**Sitat:** "Xoş xəbərdir ki, "AzadlıqRadiosu", "Azad Avropa" və "Amerikanın Səsi" artıq fəaliyyətini dayandırıb. Amma bu, kifayət deyil, daha dərinə getmək lazımdır. "Human Rights Watch", "Freedom House", "Amnesty İnternational", "Transparency" - onun siyasi düşmənlərinin bütün bu infrastrukturu tamamilə fəaliyyətsiz vəziyyətə gətirilməlidir. Biz bütün o qarayaxma kampaniyaları ilə, əlaqələndirilmiş hücumlarla üzləşmiş bir ölkə olaraq onların necə işlədiklərini, necə fəaliyyət göstərdiklərini çox yaxşı bilirik".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

# Putindən miqrantlarla bağlı yeni qərar - azərbaycanlılar...

## Sabiq nazir: "Miqrantsız Rusiya susuz quyu kimidir"

**Prezident Vladimir Putin Rusiyada miqrantlara hüquqi statuslarının nizama salınması üçün verilən müddəti 133 gün uzadan sərəncam imzalayıb. Sərəncama əsasən, əcnəbi vətəndaşların və vətəndaşlığı olmayan şəxslərin Rusiya ərazisində hüquqi statusunun tənzimlənməsi müddəti 2025-ci il sentyabrın 10-dək uzadılıb.**



Bu qərar soydaşlarımıza necə təsir edəcək?

Rusiyada bundan əvvəlki dövrdə mövcud olmuş reallıqlar kontekstində sənədləri yerində olmayan, qeydiyyatdan keçməyən, qeydiyyatla bağlı müəyyən problemləri olan miqrantların sayı kifayət qədər çoxdur. Miqrantlar ucuz işçi qüvvəsi olaraq ən ağır sahələrdə çalışırlar. Ona görə də miqrantların ölkədən çıxarılması hökumətə sərf etmir. Lakin daxili təhlükəsizlik üçün miqrantların filtirdən keçirilməsi vacibdir. Ehtimal edilir ki, miqrantlarla bağlı qaydalar qarşıdakı müddətdə bir qədər yumşaldılacaq. Çünki hazırkı tələblər miqrantların böyük bir hissəsi üçün icrası çətin olan prosedurdur. Yəqin ki, sentyabrın 10-dan sonra qaydalarda bir qədər yumşalma olacaq.

Qeyd edək ki, yeni qanuna əsasən, əcnəbilərin ölkədən çıxarılması ilə bağlı qərar qəbul etmək səlahiyyəti birbaşa daxili işlər orqanlarına verilib. Ekspertlər hesab edir ki, yeni qanun əcnəbilərin hüquqlarının pozulmasına və onların kütləvi şəkildə ölkədən çıxarılmasına səbəb ola bilər. İnsan hüquqları təşkilatları da bu məsələ ilə bağlı narahatlıqlarını ifadə ediblər. Rusiya niyə bu məsələdə yumşalma mövqeyinə keçdi?

**Sabiq maliyyə naziri, siyasi və iqtisadi məsələlər üzrə şərhçi Fikrət Yusifov Rusiya əhalisi ilə bağlı "Yeni Müsavat"da diqqətçəkən statistika açıqladı:** "Aparılan hesablamalara görə, 2024-cü ilin sonunda Rusiyanın əhalisi 146 milyon 202 min 878 nəfər olub. Statistika göstərir ki, 2024-cü ildə Rusiya əhalisi təxminən 59 919 nəfər artıb. Ancaq əsl reallıq nədən ibarətdir? Əhalinin təxminən 60 min nəfər artımı hansı hesaba baş verib? Gəlin baxaq. 2024-cü il ərzində Rusiyada 1 milyon 857 min 477 uşaq doğulub. Həmin ildə ölənlərin sayı 2 milyon 25 min 541 nəfər təşkil edib. Bu statistika ilə əhalinin sayı bir il ərzində 168 min 64 nəfər azalıb. Bəs belə olan halda əhalinin sayının 60 min nəfərə qədər artımı hansı hesaba baş verib? Əlbəttə ki, 2024-cü il ərzində Rusiyaya gələn 227 min 983 nəfər miqrantın hesabına... Bu qədər miqrant hesabına Rusiya əhalisinin nəinki təbii azalmasının (168 min 64 nəfər) qarşısı alınıb, hətta əhalinin sayında 60 min nəfərə qədər "təbii artım" qeydə alınıb. Rusiyada demoqrafik vəziyyətin gerçək durumu budur.

Əgər Rusiyanın demoqrafik durumundakı bir başqa mənzərələrə nəzər salsaq, vəziyyətin göstərdiyimiz mənzərədən daha acınacaqlı olduğunu görə bilərik. Baxın, bu gün Rusiyada kişilər (67,7 milyon nəfər) ümumi əhalinin 46,3%-ni, qadınlar isə (78, 5 milyon nəfər) ümumi əhalinin 53,7%-ni təşkil edir. Bu ölkədə qadınlar kişilərdən 10,8 milyon nəfər və ya 7,4% çoxdur. Ukraynaya qarşı Rusiyanın açdığı müharibə ilə əhalinin strukturunda kişilərin sayı və təbii ki, xüsusi çəkisi bir qədər də azalacaqdır. Nəzərinizə çatdırıram ki, bu müharibədə Rusiya tərəfdən ölən kişilərin sayı artıq 1 milyon nəfər ətrafındadır".

**Sabiq nazir bir məsələni də xüsusi qeyd etdi:** "Rusiyada dünyaya gətirilən uşaqların böyük əksəriyyəti orada yaşayan 30 milyona qədər müsəlmanın sahib olduğu ailələrin payına düşür. Yeni gerçək olan budur ki, Rusiya hökumətinin bütün həvəsləndirici tədbirlərinə baxmayaraq, rus ailəsi dünyaya uşaq gətirmək istəmir. Bir sözlə, bu ölkədə demoqrafik vəziyyəti tənzimləyən və onu dərin demoqrafik böhrandan çıxaran miqrantlar və orada vətəndaş kimi yaşayan müsəlman ailələrdir.

Belə bir ölkədə miqrantlara qarşı basqı etmək, onları kütləvi şəkildə ölkədən çıxartmaq dövləti bir cinayətdir - mən bu sözləri tam məsuliyyətlə deyirəm. Rusiyada bu gün bütün şəhərlərdə və digər yaşayış məntəqələrində tikinti sahəsində, kommunal və nəqliyyat sferalarında və bir çox digər sferalarda çalışanların 90%-dən çoxu miqrantlardır.

Miqrantları Ukrayna ilə müharibəyə cəlb etmək istəyən Rusiya müharibəyə getmək istəməyənləri ölkədən çıxarmaq qərarına gəldi. Və Rusiya hökumətinin bu addımlarının geniş təbliğatı aparıldı. Əslində bu bir görüntü idi. Real olaraq Rusiya hakimiyyətinin başında dayananlar və onu idarə edənlər çox yaxşı anlayırlar ki, miqrantsız Rusiya susuz quyu kimidir. Miqrantsız Rusiyada iqtisadiyyat və bütövlükdə ölkə sürətlə çökər".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**



# Toya onlayn qatılan qayınata

Zamin HACI
zaminhaci@gmail.com

**Son vaxtlar MSK sədri Məzahir müəllimin başı üzərində qara buludlar dolaşır və mənim şəxsi qənaətim belədir ki, onu vəzifəsindən uzaqlaşdıracaqlar.**

İqtidar daxilində onu sevməyən hansısa qara qüvvələr formalaşmışdır. Bunun əsas səbəbi isə son parlament seçkisində müxalifətçi namizəd Erkin Qədirlinin bütün baryerləri mətinliklə aşaraq deputat seçilməsidir. Erkin bəy parlamentdə kəskin, radikal mövqeyi ilə gündəmdən düşmür, qanun və qərarların səsverməsi zamanı nəinki bitərəf qalır, hətta bəzən əleyhinə səs verir! İqtidar məhz bunu Məzahir müəllimə bağışlamaq fikrində deyildir. Bir müxalifətçi özlüyündə bir şey deyil, lakin niyə könül bulandırsın?

O baxımdan, Məzahir müəllimin oğlunun ətrafındakı hadisələr diqqət çəkir. Əgər mövzunu bilməyənlər varsa, qısa spoyler verim: bir gəlin Amerikadan qaçıb gəlib, göz-baş gömgöy, deyir Los Ancelesdə 3 milyon dollarlıq villada Məzahir müəllimin oğlu ilə qalırdıq, pivə içib butulkasıyla məni döyürdü, işgəncə verirdi, birtəhər qaçıb gəlmişəm.

Güman edirəm meşə yanğını olanda tüstüdən yararlanaraq aradan çıxıbdır. Sözgəlişi, bu əhvalat xeyli dərəcədə bu il Oskar mükafatı alan bambılı “Anora” filminin süjetinə bənzəyir. Orada da varlı papanın gül balası bir qıza aşiq olurdu, sonra papa uşağı məcbur edirdi ki, boşansınlar və sairə - açığı, süjet tam yadımda qalmayıb, bircə iki erməni aktyor yadımdadır, filmdə yeganə maraqlı tiplər də elə onlar idi. Kim nə deyir-desin, ermənilər aktyorluğun ustasıdır.

Əlbəttə, mən iddia etmirəm ki, Məzahir müəllim rus oliqarxdır (filmdə oğlanın papası məhz belə biri idi), üstəlik, bu dəqiqə Rusiya ilə münasibətimiz sərinləşib, deputatımızı deport ediblər. Ancaq hər halda, kinosunu çəkmək olar. Pul ayrılıb, Kino Agentliyinə təzə müdir qoyulub, bədii şura təsdiqlənib, süjet də hazırdır, ta nə lazımdır?

Hətta ssenariyə gərginliyi artırmaq üçün belə səhnə təklif edirəm: Məzahir müəllim Biləcəri bələdiyyəsinə seçkiləri təşkil edərkən Los Ancelesdən acı xəbər alır, SNN kanalı canlı yayımda onun Hollivud bulvarında qaçan gəlinini iri planda göstərirlər. (Həmin seriyanı “Daha bir gəlin qaçdı” adı ilə Netfliksə satmaq olar).

Lakin məsələ bu qədər sadə deyil ki. Sayın hüquq müdafiəçisi Novella Cəfəroğlu qəzetimizə problemi belə şərh etmişdir: “Bu məsələdə məni ən çox sarsıdan məqam odur ki, Məzahir Pənahovu cəmiyyət içində ciddi, ailə dəyərlərinə sadiq, yüksək əxlaqi mövqeyi olan bir insan kimi tanımışam və ona həqiqətən böyük hörmət bəsləmişəm. Amma görünən odur ki, çox tərbiyəsiz bir oğul böyüdüb. Oğlu bu davranışı ilə təkcə öz atasını deyil, Azərbaycanı və özünü biabır edib”. Sitatın sonu.

Açığı, sayın Novella xanım bir qədər şişirdibdir, məncə, bu hadisə Azərbaycanı biabır etmir. Əslində Azərbaycanı heç kim biabır edə bilməz, şair demişkən, Azərbaycan deyiləndə ayağa dururuq, ancaq indi tema bu deyil. Sadəcə, unutmaq olmaz ki, Məzahir müəllimin oğluna tərbiyə verməyə heç zaman vaxtı, imkanı olmamışdır. O, bütün şüurlu həyatını xalqa xidmətdə, seçkilərin təşkilində keçirmişdir. Buna mən özüm neçə dəfə Allah şahidiyəm. Məsələn, seçki bitirdi, müşahidəçilər protokolu tələb edirdilər, gecə yarısına qədər səslər sayılıb bitməzdi, hamı yatırdı, Məzahir müəllim isə səhər açılanacan səs sayır, protokol hazırlayırdı.

Biz evdə uşağın burun-boğazından öpüb 1-ci sinifə yollayanda Məzahir müəllim bülleten qulağı kəsirdi. Biz oğlumuzun gündəliyindəki quyruqlu beşləri sayanda Məzahir müəllim ofisdə oturub Gədəbəyin İnəkboğan kəndindən gələn səsləri gözləyirdi. Biz valideyn iclasına gedib Bibixanım müəllimənin tələb və təkliflərini dinləyəndə Məzahir müəllim müxalifətçi Erkin Qədirlinin MSK-dakı nümayəndəsi Natiq Cəfərlinin haqsız ittihamları ilə savaşmağa məcbur idi.

Hətta mənə elə gəlir Məzahir müəllim oğlunun toyunda şəxsən iştirak edə bilməyib, onlayn qatılıbdır. Bəlkə mən səhv edirəm?



# Vyetnam liderinin Bakı səfəri - Hanoy bizə nə verəcək?

## Təkcə qarşılıqlı siyasi əlaqələrdən deyil, iqtisadi baxımdan hər iki ölkənin bir-birinin təcrübəsindən yararlanacağı bir çox sahə var

**Vyetnamın hakim partiyasının rəhbəri Azərbaycana səfər edəcək. Vyetnam Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lam 5-12 may tarixlərində Qazaxıstan, Azərbaycan, Belarus və Rusiyada rəsmi səfərdə olacaq. O, eyni zamanda İkinci Dünya müharibəsində qələbənin 80 illiyi münasibətilə Moskvada baş tutacaq paradda iştirak edəcək.**

Azərbaycanla Vyetnam Sosialist Respublikası arasında diplomatik münasibətlər 23 sentyabr 1992-ci ildə qurulub. Son illər ərzində iki ölkə arasında çoxşaxəli əməkdaşlıq qurulub.

Vyetnam Kommunist Partiyası və Yeni Azərbaycan Partiyası arasında əməkdaşlıq da genişləndirilməkdədir. Son illər ərzində Azərbaycan ilə Vyetnam arasında siyasi dialoq yüksək səviyyədədir. Hər iki tərəfdən yüksək səviyyəli rəsmi şəxslərin qarşılıqlı səfərləri mütəmadi olaraq həyata keçirilir. Eyni zamanda Vyetnamla beynəlxalq təşkilatlar, xüsusilə də BMT və Qoşulmama Hərəkatı çərçivəsində qarşılıqlı etimad və dəstəyə əsaslanan konstruktiv əməkdaşlığımızı xüsusi qeyd etmək lazımdır.

Azərbaycan Vyetnamla münasibətlərdə irəliləyişin olacağını və tezliklə Bakıda səfirliyinin açılmasını gözləyir. “Report”un xəbərinə görə, bunu Azərbaycanın Vyetnamdakı səfiri Şövqi Mehdizadə baş katib To Lamın Azərbaycana dövlət səfərindən əvvəl “The Gioi and Vietnam” qəzetinə müsahibəsində deyib.

Diplomat qeyd edib ki, bu, Vyetnam Kommunist Partiyasının rəhbərinin iki ölkə arasında diplomatik əlaqələrin qurulmasından sonra Azərbaycana ilk səfəri, eləcə də baş katib To Lam vəzifəyə başladıqdan sonra ölkəyə ilk səfəridir. “Baş katib To Lamın Azərbaycana dövlət səfəri zamanı iki ölkə arasında müzakirələr və ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi üçün açıq gündəm olacaq. Biz Vyetnam-Azərbaycan münasibətlərinin Bakıda iki ölkənin ali liderlərinin tarixi görüşü sayəsində irəliləyiş əldə edəcəyini gözləyirik”, - deyə ölkəmizin Vyetnamdakı səfiri Şövqü Mehdizadə bildirib.

O qeyd edib ki, bu səfərdən sonra iki ölkə arasında turizm, təhsil, informasiya texnologiyaları, nəqliyyat, istehsalat, əməkdaşlıq layihələri, kənd təsərrüfatı və ətraf mühit kimi bir çox sahələrdə əməkdaşlığı gücləndirmək üçün qərarlar qəbul ediləcək.

“Mən xüsusilə ümid edirəm ki, gələcəkdə iki ölkə arasında birbaşa aviareys açılacaq ki, bu da iki ölkə arasında səyahətə artan tələbatı ödəyəcək. Biz həmçinin Vyetnamın da tezliklə Bakıda səfirliyini açacağını gözləyirik”, - Mehdizadə bildirib.

Vyetnamla əlaqələrin genişlənməsi Azərbaycana hansı faydaları verə bilər?

**AMİP liderinin beynəlxalq əlaqələr üzrə müavini Elşən Mustafayev “Yeni Müsavat”a açıqlamasında Vyetnamın öz coğrafiyasında vacib ölkələrdən biri olduğunu qeyd etdi**: “Vyetnam deyəndə ilk baxışda yerləşdiyi coğrafiyada sıradan bir dövlət kimi qəbul oluna bilər. Xüsusilə orta və yaşlı nəsil üçün Vyetnam 60-cı illər, 70-ci illərin əvvəlləri ABŞ-la apardığı müharibəyə həsr olunmuş filmlərlə və 1990-cı illərə qədər Azərbaycan ali məktəblərində təhsil almış minlərlə vyetnamlı tələbələrlə yadda qalıb. Son 30 ildə ciddi siyasi-iqtisadi proseslərdə adı hallanmasa da, ölkənin idarəetməsi hələ də Kommunist Partiyasının nəzarətində olsa da, Vyetnam Asiya qitəsində, öz coğrafiyasında yerləşən vacib ölkələrdən biri kimi qiymətləndirilməlidir. Hazırda Çin, İndoneziya başda olmaqla Asiya qitəsində bir çox dövlətlər ciddi iqtisadi yüksəlişə sahibdir və yaxın gələcək üçün böyük dünya dövlətləri bu qitə ilə ya dostluğa, əməkdaşlığa üstünlük verəcəklər, ya da düşmən olmaq məcburiyyətində qalacaqlar. İsti və sərfəli münasibətlər daha vacib olduğundan o coğrafiyada Vyetnam həm də çəkisi olan dövlət kimi qəbul olunmalıdır. Azərbaycanla diplomatik münasibətlərin yeni mərhələyə keçməsi perspektivini gələcəyə qoyulmuş yatırım kimi dəyərləndirmək olar. Yeri gəlmişkən, hazırda Vyetnam dövlətinin iqtisadi-siyasi həyatında vaxtilə Azərbaycanda təhsil almış, bizləri yaxşı tanıyan çoxlu sayda insanlar var”.

**İqtisadçı ekspert Günay Hüseynova Vyetnamla əlaqələrin Azərbaycan üçün xüsusi əhəmiyyətindən söz açdı:** “Bir çox ölkələr ilə iqtisadi, siyasi və ticari əlaqələrimiz olduğu kimi, Vyetnamla da əməkdaşlıq edirik. Vyetnamla iqtisadi əlaqələrin başlanğıcı ölkəmizin Birləşmiş Millətlər Təşkilatına üzvlüyündən sonra oldu. Müəyyən səbəblərdən iqtisadi əlaqələrimiz məhdud səviyyədə olsa da, son zamanlarda enerji sektoru, bununla yanaşı, Azərbaycan üzərindən Avropaya çıxış və digər iqtisadi maraqlar ticarət əlaqələri genişləndirib. Ölkəmizdən Vyetnama neft və neft məhsulları, xüsusilə də xam neft ixrac olunur, Vyetnamdan isə əsasən qida məhsulları, xüsusilə çay, elektronika məhsulları idxal olunur. Onu da qeyd edim ki, bu ölkə ilə ticarətimiz müsbət ticarət saldosundadır. Vyetnamın ölkəmizdə səfirliyinin açılması, vizasız rejim, birbaşa aviareysin açılması hər iki ölkə üçün iqtisadi maraq təşkil edir. Yaşıl iqtisadiyyata keçid, son dövrlərdə ölkəmizin Avropanı enerji ilə təminatı, tranzit ölkə kimi Avropaya çıxışı xüsusi əhəmiyyət kəsb edir. Əlbəttə, bizim üçün də iqtisadi maraq təşkil edir. Turizmin inkişafı baxımından Vyetnam vətəndaşlarının ölkəmizə səfəri, investorların cəlb olunması, ticarət əlaqələrimizi daha da genişləndirərək daha çox çeşid məhsul ixracatı kimi mühüm nəticələr əldə olunmasına səbəb olub. Onu da qeyd edim ki, 2024-cü ilin statistik göstəricilərinə əsasən Vyetnama 78 milyon dollar həcmində məhsul ixrac etmişik.

İqtisadi baxımdan hər iki ölkənin bir-birinin təcrübəsindən yararlanacağı bir çox sahə var. Onlar neft sektoruna daha çox maraq göstərir, bizdə isə Vyetnam təcrübəsindən yararlanıb elektronika, avadanlıq istehsal etmək daha faydalı olar deyə düşünürəm. İnkişaf etməkdə olan ölkələrin əksəriyyəti elektronika istehsal edir, həm daxili tələbatı ödəyir, həm də brend olaraq xarici bazara çıxır. Bununla yanaşı, bu sahə gəlirli hesab olunur. Əvvəllər ölkələr bir-birinə daha çox k/t məhsulları, qida, tekstil məhsulları ixrac edirdisə, indi innovativ, elektronik məhsullar ixrac olunur. Vyetnamla əlaqələr bu baxımdan xüsusi əhəmiyyət kəsb edir".

❑ Cavanşir ABBASLI,
“Yeni Müsavat”

# Papikyan Afinada - Yunanıstan yeni silahlar göndərəcək

## Rəsmi İrəvan təhlükəli oyunun içərisində: sülh bəyanatları fonunda silah alış-verişi davam edir; Bakıdan xəbərdarlıq




**44 günlük müharibə və bir günlük antiterror əməliyyatlarında arsenalının böyük bir hissəsi darmadağın edilmiş Ermənistan ordusunun yeni silahlar almaq üçün xüsusilə son zamanlar göstərdiyi canfəşanlıq hər kəsə məlumdur. "Yeni Müsavat" bildirir ki, İrəvanın silahlanmasına həvəslə dəstək verən daha bir ölkə Yunanıstandır.**

Bir müddət əvvəl ölkənin "Enikos" portalının yaydığı xəbərdə Afinanın öz arsenalından İrəvan üçün ayırdığı "silah sovqatı"nın tərkibi də açıqlanıb - Rusiya istehsallı "S-300" zenit-raket kompleksi, "TOR M-1" və "OSA-AK" kompleksləri. Təkcə son dövrlər ərzində bu ölkənin hərbi məktəblərində təhsil alan erməni kursantlarının sayının iki dəfə, o cümlədən burada yetişdirilən erməni xüsusi təyinatlılarının da sayının xeyli artması məlum faktlardır.

Bu arada məlum olub ki, Ermənistanın müdafiə naziri Suren Papikyan Yunanıstanda səfərdədir. Xatırladaq ki, 2023-cü ilin dekabrında Yunanıstana səfər zamanı iki ölkənin müdafiə nazirləri hərbi-texniki əməkdaşlıq haqqında saziş imzalayıblar. Müqavilə silah, döyüş sursatı və partlayıcı maddələrin istehsalı üçün texnologiyanın və texniki dəstəyin ötürülməsi, döyüş sursatı istehsalı sahəsində məlumat və təcrübə mübadiləsi, hərbi təyinatlı mallar və onların istehsalı sahəsində tədqiqatlar, silah-sursat və silah istehsalı sahəsində təcrübə mübadiləsi kimi mühüm əməkdaşlıq sahələrini əhatə edir. Saziş hərbi-texniki əməkdaşlığın formaları, o cümlədən texniki kadrların hazırlanması, üçüncü ölkələrdə istehsal olunan hərbi təyinatlı məhsulların təmiri və istismarı ilə bağlı xidmətlərin göstərilməsi ilə bağlı müddəaları nəzərdə tutur.

Ermənistanla Yunanıstan arasında hərbi əlaqələr yeni deyil. Hətta son illər yunan Kiprini də bu prosesə qoşaraq faktiki olaraq Türkiyə və Azərbaycana qarşı hərbi koalisiya yaradıblar. Xatırlatmaq yerinə düşər, 2023-cü ilin iyulunda Yunanıstan, Ermənistan və Kipr üçtərəfli müdafiə məsləhətləşmələri keçirilmişdi. Kiprdə keçirilən görüşdə üç ölkənin rəsmiləri qarşılıqlı maraq doğuran təhlükəsizlik məsələlərini müzakirə edərək, öz müdafiə və təhlükəsizliklərini gücləndirmək məqsədini bir daha təsdiqləmişdilər. Həmçinin qarşıdakı illər ərzində bir-birilərinin ərazilərində keçirəcəkləri silsilə tədbirlər üçün əməkdaşlıq planı da imzalanmışdı. O zaman bəlli olmuşdu ki, Yunanıstan Fransadan 24 ədəd "Dassault Rafale" çoxməqsədli döyüş təyyarəsi sifariş edib. Yunanıstan Hərbi Hava Qüvvələrinin (HHQ) "F-16" parkının əsas hissəsi də ən müasir "Blok 72" standartına qədər təkmilləşdirilir. Ən əsası isə Afina ən azı 20 ədəd beşinci nəsil "F-35" "Lightning II" döyüş təyyarəsi sifariş edir və daha 28 ədəd almaq imkanına malikdir. Türkiyə ilə gərginliyin azalmasına baxmayaraq, hərbi arsenalına yeni silahlar əlavə edən Yunanıstan paralel qaydada Ermənistanın da silahlandırılmasına dəstək verir, baxmayaraq ki, Bakı və İrəvan arasında sülhün əldə olunması istiqamətində müzakirələr gedir. Avropa İttifaqının üzvlərinin Ermənistanın revanşist siyasətinə dəstək verməsi bu qurumun Ermənistandakı kəşfiyyat şəbəkəsinin genişlənməsi fonunda baş verir. Üstəlik, Fransa və Hindistan istehsalı olan silahların daşınması da Nikol Paşinyanın sülh bəyanatlarını səsləndirdiyi zaman daha intensiv şəkildə həyata keçirilir.

Doğrudur, əzəli düşməni olan Türkiyə və onun təbii müttəfiqi Azərbaycana qarşı erməni ordusunu gücləndirmək niyyəti güdən Afina bunu təkbaşına yox, Ermənistanın böyük bacısı - Emmanuel Makron hökumətinin diktəsi və yardımı ilə edir. Yunanıstan isə Azərbaycan qazının əsas alıcılarındandır. Afinanın İrəvana silah verməsi Yunanıstanın enerji təhlükəsizliyi sahəsində əsas tərəfdaşı olan Azərbaycanla münasibətlərinin soyumasına səbəb ola bilər. Bu məsələlərlə bağlı ekspertlərimizin maraqlı şərhi var. Ermənistanı savaşa həvəsləndirənlər nə etmək istəyirlər?

**Deputat Sahib Alıyev "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Ermənistanın militarlaşdırılmasında Avropa Birliyində parazit dövlət kimi yanaşılan Yunanıstanın yer alması təkcə türk düşmənçiyi ilə bağlı deyil**: "Burada Brüsselin, yaxud da Parisin rolu varsa, o da üçüncü dərəcəlidir. Yunanlar hansı ölkənin istehsalı olan hərbi texnikanı Ermənistana gönədərirlər? Rusiyanın, eləmi? Siz necə düşünürsünüz, bu, Rusiyanın ürəyindəndir, ürəyindən deyil? Məncə, nəinki ürəyindəndir, hətta mümkündür ki, üç ölkə - Rusiya, Yunanıstan və Ermənistan həmin texnikanın sonuncuya ötürülməsi ilə bağlı birgə razılığa gəliblər. Niyə? Deyim. Rusiyaya əl verir ki, Hindistan, Fransa və digərlərinkindən daha çox Ermənistanda özünün istehsal etdiyi hərbi texnika və sursat olsun. Amma Ukraynaya qarşı apardığı savaş səbəbindən hərbi texnika və silah-sursata böyük ehtiyac duyduğundan forpostunu hər iki tərəfin arzuladığı səviyyədə təchiz edə bilmir". **S.Alıyev qeyd etdi ki, üstəlik, Qərbdəki havadarları da bəlli səbəbdən Ermənistanın Rusiyadan birbaşa hərbi texnika və silah-sursat almasına isti yanaşmırlar:** "Beləliklə, Rusiya istehsalı olan raket komplekslərinin Yunanıstandan alınmasıyla "həm çoban özünü rahat hiss edir, həm qurd qane olur, həm də qoyun". Oyun bundan ibarətdir. Burada onu da xatırlatmağa ehtiyac var ki, hələ SSRİ dönəmində pravoslav Yunanıstanla yunan Kiprinə yanaşma digər kapitalist ölkələrinə yanaşmadan fərqlənirdi. SSRİ dağılandan sonra da çirkli pulların yuyulmasından tutmuş, bir sıra digər qaranlıq əməliyyatlaradək Rusiya siyasi elitası daha çox məhz həmin o iki pravoslav ölkəsi ilə birgə reallaşdırmağa üstünlük verirdi. Keçmiş kapitalist düşərgəsindən Qərbdəkilərin içərisində Rusiyadan ən çox silah idxal edən də yenə sözügedən bu iki ölkə idi. Yəni əvvəlki əlaqələr yeni şəraitin diktəsinə uyğun olaraq müəyyən dəyişikliklərə uğramaqla davam etdirilir". **Millət vəkili rəsmi Bakının məsələyə həssas yanaşmasını normal saydı:** "Təbii ki, Azərbaycan Ermənistanı militarlaşdıranların hərəkətlərinə göz yuması deyil və ən azından asimmetrik cavablar veriləcək. Yunanıstandan "S-300", TOR və OSA alan Ermənistana gəldikdə isə, yadlarına salmaq istəyirəm ki, İkinci Qarabağ savaşı zamanı həmin o "S-300"dən beşini, bir TOR M2KM və 14 OSA AKM-lərini necə sıradan çıxarmışdıqsa, təhlükəsizliyimiz üçün təhdid yaradacaqları halda, təzə əldə etdiklərinin də taleyi, şəxsi heyətlə birgə o cür olacaq".

**Ermənişünas alim, Türkiyənin Erciyes Universitetinin professoru Qafar Çaxmaqlı** qeyd etdi ki, Ermənistan ordusunun "yenidənqurma" adı ilə silahlandırılmasında Yunanıstanın yer alması yeni deyil: "Ermənistanın müdafiə naziri bu ölkəyə son illər bir neçə dəfə səfər edib. Bu, Türkiyə və Azərbaycana qarşı hərbi ittifaq deməkdir, Avropada bu işin başında Fransa dayanır. Yunanıstanlı hərbi mütəxəssislər Ermənistanda sürəkli xidmətdədirlər. Əlbəttə, Azərbaycanla enerji portnyorluğu içində olan bu ölkə ilə münasibətlərə xələl gətirən hərəkətlər gələcəkdə bəlli problemlərə səbəb olacaq". **Q.Çaxmaqlının fikrincə, Azərbaycan indidən Yunanıstanı xəbərdar etməlidir:** "Ermənistana verilən silahların bir çox növləri NATO silahlarıdır və məsələyə münasibəti maraqlı olacaq, bu hərbi alyansın işə qarışmasına çalışmaq lazımdır. İkinci tərəfdən, silah arsenalı ilə bağlı beynəlxalq konvensiyanın işə salınması diplomatiyamızın əsas işi olmalıdır. Ermənistanın silah deposunun artırılması bölgədə sabitliyin təhlükəli həddə gəlməsi ilə nəticələnə bilər. Ermənistan yenə bəzi güclərin əlində alət olmaq funksiyasını davam etdirir, onu savaşa həvəsləndirənlər bu dövlətin taleyini fikirləşmirlər. Ermənistanın siyasi hakimiyyəti isə iqtidarını qorumaq üçün silahlanmaqla publikaya oynayır, sonunu fikirləşmir".

❑ **E.PAŞASOY,**
**Musavat.com**



# Belarusun baş naziri işğaldan azad torpaqlarda

## Prezident İlham Əliyev Turçini qəbul edib

**Prezident İlham Əliyev mayın 6-da Belarusun baş naziri Aleksandr Turçini qəbul edib. Dövlət başçısı Azərbaycanla Belarus arasında əlaqələrin möhkəm dostluğa və qarşılıqlı etimada əsaslandığını qeyd edərək, Aleksandr Turçinin baş nazir vəzifəsinə təyin olunmasından sonra ilk səfərlərindən birini Azərbaycana etməsinin məhz ölkələr arasında olan sıx tərəfdaşlıq münasibətlərinin mahiyyətindən xəbər verdiyini deyib.**

Prezident İlham Əliyev Azərbaycanla Belarus arasında mövcud siyasi əlaqələrin ruhuna uyğun olaraq iqtisadi-ticari münasibətlərin daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayıb.

Turçin Belarus Prezidenti Aleksandr Lukaşenkonun salamlarını dövlət başçısına çatdırıb.

İlk dəfə Bakıya səfər etdiyini deyən Belarusun baş naziri paytaxtımızda gördüyü inkişaf proseslərinin onda dərin təəssürat hissi yaratdığını bildirib.

Görüşdə Azərbaycanla Belarus arasında iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsinə dair fikir mübadiləsi aparılıb. Bu xüsusda, Gəncə avtomobil zavodunda Belarus avtomobil texnikasının istehsalı və bu texnika üçün Azərbaycanın müxtəlif bölgələrində servis mərkəzlərinin yaradılmasının əhəmiyyəti vurğulanıb.

Azərbaycanda lift, məişət texnikası, kənd təsərrüfatı, xüsusilə heyvandarlıq, südçülük, ətçilik və quşçuluq üzrə birgə istehsal sahələrinin təşkili və təcrübə mübadiləsinin həyata keçirilməsinə dair müzakirələr aparılıb.

Hökumətlərarası komissiyaya qeyd olunan istiqamətlər üzrə müvafiq tapşırıqlar verilib.

Söhbət zamanı dost ölkə Belarusun şirkətlərinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərində bərpa-quruculuq işlərində iştirakı məmnunluqla qeyd edilib.

Belarusun baş naziri Azərbaycana səfəri çərçivəsində azad edilmiş ərazilərə gedəcəyini və vəziyyətlə yerində tanış olacağını bildirib. Belarus baş naziri mayın 6-da səfəri çərçivəsində Füzuli şəhərində olub.

YENİ MÜSAVAT
N 78 (8688) 7 may 2025



# Rusiya təyyarə qəzasına görə hələ də susur

## Rəsmi Bakının müraciətləri cavabsız qalıb

**Bakı-Qroznı reysini həyata keçirməli olan AZAL təyyarəsinin Aktau hava limanı yaxınlığında qəzaya uğramasından 5 ay keçsə də, Rusiya hadisə bağlı aparılan istintaq haqqında konkret heç bir məlumat açıqlamır.**

APA-nın araşdırması nəticəsində məlum olub ki, Azərbaycan tərəfi hər ay bu məsələ ilə bağlı Rusiya tərəfinə müraciət edir. Lakin qarşı tərəf müxtəlif bəhanələrlə istintaqı uzadır, müraciətlərə cavab vermir.

"Bu 5 ay ərzində Rusiya tərəfindən heç bir istintaq hərəkətləri aparılmır. Qəzanın baş verməsində günahı və məsuliyyəti olan şəxslərdən heç kim barəsində həbs-qətimkan tədbiri seçilməyib", - deyə mənbə qeyd edib.

Mənbə onu da deyib ki, bu yaxınlarda Azərbaycan və Rusiya hüquq-mühafizə orqanları arasında məsələ ilə bağlı növbəti yazışma olub, amma yenə nəticə yoxdur: "Azərbaycan tərəfi Rusiyadan məsələ ilə bağlı konkret addımlar gözləyir".

Rusiya tərəfi indiyədək yalnız onu bildirib ki, hadisənin araşdırılması Rusiya İstintaq Komitəsinin mərkəzi aparatına tapşırılıb.

"Rusiya Federasiyası Cinayət Məcəlləsinin 263-cü maddəsi (hərəkət təhlükəsizliyi və hava nəqliyyatının istismarı qaydalarını pozma) ilə Qərb Regionlararası Nəqliyyat İstintaq İdarəsi tərəfindən başlanmış cinayət işi hərtərəfli araşdırılması üçün Rusiya İstintaq Komitəsinin Baş İstintaq İdarəsinə verilib", - qurumdan bildirilib.

Xatırladaq ki, AZAL-a məxsus Bakı-Qroznı aviareysini həyata keçirən sərnişin təyyarəsi dekabrın 25-də Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğrayıb. Təyyarənin göyərtəsindəki 67 nəfərdən 42-si Azərbaycan, 16-sı Rusiya, 6-sı Qazaxıstan, 3-ü isə Qırğızıstan vətəndaşı olub. Onlardan 38-i həlak olub, 29-u sağ qalıb. Qəzadan sonra xəstəxanaya 27 şəxs daxil olub. Onlardan 15 nəfər Azərbaycan Respublikasının, 8 nəfər Rusiya Federasiyasının, 3 nəfər Qırğızıstan Respublikasının vətəndaşıdır.

Hər iki pilot da daxil olmaqla, 3 ekipaj üzvü həlak olub, iki ekipaj üzvü isə sağ qalıb. Dekabrın 26-da Azərbaycana 14 yaralı və 4 nəfərin meyiti gətirilib.

Prezident İlham Əliyevin sərəncamı ilə qəza zamanı fədakarlıq göstərmiş ekipaj üzvlərindən iki pilot və bir təyyarə bələdçisi isə Azərbaycanın Milli Qəhrəmanı (ölümündən sonra), iki təyyarə bələdçisi isə "Rəşadət" ordeni ilə təltif olunub.

Qeyd edək ki, hadisədən sonra dövlət başçısının tapşırığı ilə təyyarə qəzasının səbəblərinin araşdırılması üçün baş nazir Əli Əsədovun rəhbərliyi ilə Dövlət Komissiyası yaradılıb.

Eyni zamanda Prezident İlham Əliyev dekabrın 26-nın Azərbaycanda matəm günü elan olunması barədə sərəncam imzalayıb.

Yada salaq ki, yanvarın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Aktauda qəzaya uğrayan AZAL-a məxsus "Embraer 190" sərnişin təyyarəsinin həlak olan ekipaj heyətinin ailə üzvləri və qəza zamanı sağ qalan təyyarə bələdçiləri ilə görüşüb. Prezidentin görüş zamanı çıxışı bir çox baxımdan diqqət çəkib. Ölkə başçısı bir daha bildirib ki, təyyarə qəzasına görə məsuliyyət Rusiya hakimiyyət rəsmilərinin üzərindədir. Moskvanın isə hələ də bu ittihamlara rəsmi və ətraflı şəkildə cavab verməməsi diqqət çəkir. Rusiya Prezidenti Vladimir Putinin timsalında üzrxahlıq edilsə də, günahkarların məsuliyyətə cəlb olunması və kompensasiyanın ödənilməsi ilə bağlı hər hansı məlumat yoxdur.

❑ **Elşən MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

# Britaniyalı lord Bakının "qara siyahı"sına can atır

## Ruben Vardanyanın pullarını ələ keçirmək uğrunda mübarizə

**Britaniyanın ən nüfuzlu nəşrlərindən biri olan "The Telegraph" qəzetində Azərbaycanın bu ölkədəki səfiri Elin Süleymanovun məqaləsi dərc olunub. Məqalədə Ermənistanın xaricdəki siyasi lobbi qruplarının destruktiv roluna və bəzi Qərb siyasətçilərinin məsələyə qərəzli yanaşmasına diqqət çəkilib. Qeyd olunub ki, xaricdəki erməni siyasi qruplar Azərbaycanı və Türkiyəni daimi hədəfə çevirməklə ideoloji mübarizəni davam etdirirlər. Onlar üçün Ermənistan bir alət rolunu oynayır, nəinki dövlət. Bu yolda onlar tək deyillər və bir sıra Qərb siyasətçiləri də sülh istiqamətində hər hansı irəliləyişi qəbul etmək istəmir.**



Lord Alton

Bu xüsusda Britaniyanın Lordlar Palatasının üzvü Lord Altonun sözügedən qəzetdə dərc edilmiş ən son məqaləsində səsləndirilmiş iddilalara cavab verilib. Qeyd olunub ki, Lord Alton Moskvadan qeyri-qanuni şəkildə Azərbaycan ərazisinə göndərilərək separatçıların başçısı kimi fəaliyyət göstərmiş Ruben Vardanyanı müdafiə edir və onun Ukraynada müharibəni dəstəklədiyinə görə sanksiyaya məruz qaldığını və Azərbaycana qarşı zorakılıqlara şəxsən rəhbərlik etdiyini unudur. Səfir məqaləsində qeyd edib ki, Lord Alton Azərbaycana hücuma çox vaxt sərf edir və sülhə doğru irəliləyişi inkar edir. O, son çıxışında adını çəkmədən faktiki olaraq separatçı lider kimi çıxış etmək üçün Moskvadan Azərbaycana qanunsuz daxil olmuş etnik erməni oliqarx Ruben Vardanyanın adından danışıb. Səfir qeyd edir ki, Lord Alton heç bir hüquqi ekspertizaya əsaslanmadan Vardanyanı və onunla işdə iştirak edən digər şəxsləri "haqsız yerə həbs edilmiş" adlandırır.

Səfir qeyd edib ki, David Alton öz çıxışlarında mütəmadi olaraq Ermənistanın "dünyada ilk xristian dövləti" olması ilə bağlı klişelərə istinad edir. "Bu iddianın əsassız olduğunu nəzərə almasaq belə, bu gün bir dövlətin qeyri-qanuni hərəkətlərinə əsrlər öncə qəbul etdiyi dini seçimlə bəraət qazandırmağın absurd olduğu vurğulanıb. Bu məntiqlə müasir Britaniyanı da 1800 il əvvəl Londiniumda (indiki London) romalıların nə etdiyinə görə mühakimə edək?" deyə ritorik sual verilib.

Liberallar Partiyasının parlamentdəki keçmiş üzvü 1997-ci ildən bəri Lordlar Palatasında liberal-demokratları təmsil edir. Alton "Jubilee Action"ın həmtəsisçisi kimi insan hüquqları ilə məşğuldur, bir neçə xeyriyyə və könüllü təşkilatın sədri, himayədarı və ya qəyyumudur. 2021-ci ilin martında ona Çin haqqında "yalan və dezinformasiya" yaydığı üçün sanksiya tətbiq olunub. 2022-ci ildə İran da Böyük Britaniyanın Müdafiə Qərargah rəisi, hökumət naziri, parlament üzvləri və digər qurumlarla birlikdə Altona qarşı sanksiyalar tətbiq edib. Ehtimal olunur ki, bu, Altonun İranı insan hüquqlarının pozulmasına görə tənqid etməsi səbəbindən edilib.

Şimali Koreya rejimi Altonu rəsmən qınayıb və onun BMT-nin Şimali Koreya üzrə Təhqiqat Komissiyası ilə əməkdaşlıq etdiyinə və insanlığa qarşı cinayətlərə dair sübutlar aşkar etdiyinə və qaçaqlara dəstək verdiyinə görə dövlətin düşməni siyahısına salınacağını bildirib.

Bu ilin aprelində Alton Rusiya Xarici İşlər Nazirliyinin şəxsi sanksiyalarına məruz qalan 21 Britaniya deputatının siyahısına daxil edilib. Özünü "insan haqları carçısı" elan edən lordun nə dərəcədə "obyektiv" olduğu Bakıda mühakimə olunan Vardanyan azmış kimi, günahsız insanların qanını tökmüş erməniləri müdafiə etməsindən bəlli olur. Şübhə yoxdur ki, belə davam edərsə, onun adı tezliklə Bakının da "qara siyahısı"na düşəcək.

**Siyasi və Hüquqi Araşdırmalar Mərkəzinin rəhbəri Xəyal Başirov "Yeni Müsavat"a bildirdi ki, Lord Altonun fəaliyyəti ayrı-ayrı dövlətlərin daxili işlərinə qarışmaq yolu ilə müəyyən dar çərçivədə maraqlara xidmət edən fəaliyyətdir:** "Bunların uşaq hüquqları ilə bağlı bir təşkilatları var, dünyada ayrı-ayrı regionlarda guya uşaqların hüquqlarının müdafiə edilməsi ilə bağlı fəaliyyət göstərirlər. Amma İkinci Qarabağ müharibəsi zamanı Ermənistanın Azərbaycan şəhərlərinə raket zərbələri endirib uşaqları öldürməsinə, uşaqları valideynsiz qoymasına bir dəfə də olsun reaksiya verməyiblər. Onlar uşaq hüquqlarından başqa hər cür yaramaz fəaliyyətlə məşğuldurlar. Azərbaycanla Böyük Britaniya arasında münasibətlərin necə olması hər birimizə bəllidir. Britaniyada qanunvericilik hakimiyyətində təmsil olunan Lord Altona da bu münasibətlər bəllidir. Amma Alton kimi şəxslər hətta öz dövlət maraqlarına da xidmət edən şəxslər deyillər. Belə olmasaydı, Britaniya-Azərbaycan münasibətlərinə uyğun davranardılar. Lord Altonun hərəkəti Britaniya-Azərbaycan münasibətləri ilə qətiyyən uyğun gəlmir".

**Ekspertin fikrincə, belə ehtimal etmək olar ki, Ruben Vardanyanın milyarder olması Altonu da onun pullarından yararlanmağa həvəsləndirib. Azərbaycana, azərbaycanlılara qarşı ağır cinayətlər törətmiş ermənilərin müdafiəsinə qalxmaq həm erməni diasporunun, həm də Vardanyanın pullarının təsiri altında atılan addımdır:** "Əslində erməni diasporu və lobbi təşkilatları Ruben Vardanyanın həbs olunmasından onun pullarından daha çox istifadə etmək üçün mümkün qədər çox faydalanmağa çalışırlar. Alton kimilərini ələ almalarında bu amil rol oynayır. Vardanyanın hüquqlarını müdafiə etmək üçün çalışdıqları görüntüsünü yaratmaq və beləliklə, daha çox pul qoparmaq istəyirlər. Vardanyanın ayrı-ayrı banklarda olan milyardları uğrunda ermənilər və Alton kimi fırıldaqçılar mübarizə aparırlar. Onlar maddi maraqları olmadan kimsəni müdafiə etmədiklərini dəfələrlə sübuta yetiriblər. Belə şəxslərin hansı dövlətin vətəndaşı, vəzifəli şəxsi olmasından asılı olmayaraq Azərbaycan tərəfindən "qara siyahı"ya daxil edilməsi istənilən an baş verə bilər. Bunun üçün Azərbaycanın əlində əsaslar yetərincə var. O cür şəxslərin Azərbaycan qanunlarını və beynəlxalq qanunları pozmasına ən doğru cavablardan biri bu olar. Lord Altonun hər hansı bir xüsusi üstünlüyü və xüsusi immuniteti yoxdur ki, biz onu arzuolunmaz şəxslər siyahısına daxil etməyək. Azərbaycan dövləti bunu etməlidir ki, gələcəkdə digər altonlar nəticə çıxarsınlar".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# "Mənim Rusiya dövlətinə qarşı heç bir fikrim olmayıb"

## Rusiyadan deportasiya edilən deputat danışdı

**Milli Məclisin deputatı, Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Azər Badamov APA-ya müsahibəsində deyib ki, Moskvada Şeremetova Hava Limanında sərhəd-keçid prosedurlarını normal keçəndən sonra Həştərxana təyyarə gözlədikləri zaman Rusiyanın Federal Sərhəd Xidmətinin əməkdaşları ona yaxınlaşıblar: "Dedilər ki, sizin ölkəyə girişinizlə bağlı aydınlaşdırılmalı məsələlər var.**

Araşdırma üçün onlarla bir yerdə məlumat bazasına baxılması ilə əlaqədar kompüter olan xüsusi otağa getdik. Bir müddətdən sonra həmin xidmətin rəisi əlində bir kağız bildirişlə mənə yaxınlaşdı və qeyd elədi ki, siz bu bildirişə imza atmalısınız, Rusiyaya girişiniz qadağan olunub. Bildirildi ki, geri qayıtmalıyam. Bildirişdə qeyd olunmuş məsələ ümumiyyətlə həqiqətdən uzaq bir məsələ idi. Bildirişdə qeyd olunmuşdu ki, Rusiya Federasiyasının "Rusiya Federasiyasından çıxma və Rusiya Federasiyasına daxil olma qaydası haqqında" Federal Qanununun 26 və 27-ci maddələrinə uyğun olaraq Rusiyaya daxil olmağıma icazə verilmir. Söhbət Rusiyanın təhlükəsizliyi və ya ictimai-siyasi sabitliyi ilə bağlı məsələdən gedir.

Deportasiya üçün məni müəyyən olunmuş əraziyə apardılar. Orada 4 saatdan çox gözləməli oldum və sonra Bakıya qayıdan təyyarə ilə məni Bakıya yola saldılar".



Azər Badamov

**Deputat deyib ki, burada anlaşılmazlıq var**: "Çünki bundan əvvəl 17-20 aprel tarixlərində Dağıstan Xalq Məclisinin 30 illik yubileyi tədbirlərinə qatılmışdıq. Aprelin 17-də dövlət sərhədini normal şəkildə keçmişik, hər hansı bir qadağanın olması haqqında xəbərdarlıq yox idi. Ancaq üzərindən qısa bir müddət keçəndən sonra Həştərxanda keçirilən tədbirlə əlaqədar səfər zamanı Moskvada bildirildi ki, Rusiyaya girişim qadağan olunub və əgər qeyri-qanuni şəkildə gəlsəm, cinayət məsuliyyətinə cəlb olunacam".

Qeyd edək ki, TASS diplomatik mənbəyə istinadən bir növ Rusiyanın mövqeyini çatdırmışdı. Arqumentlərdən biri bu idi ki, Azərbaycan da bir sıra rusiyalı deputatların girişinə qadağa qoyub, bu da fərdi şəkildə qadağadır.

**Deputat isə bunları əsassız hesab edir**: "Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü kimi həmişə Rusiya-Azərbaycan əlaqələrinin inkişafına müsbət yanaşmışam və bu əlaqələrin daha da inkişaf etməsinə töhfə verəcək fikirlər ifadə etmişəm. TASS-ın yaydığı məlumatda qeyd olunanlar həqiqətdən uzaqdır. Rəsmi Bakı anti-Azərbaycan fikirlərinə görə Rusiya parlamentinin bəzi üzvlərinin ölkəyə girişinə qadağa qoyub. Yəni onlar Azərbaycan dövlətçiliyinə xələl gətirəcək ifadələr səsləndirdiklərinə görə qadağaya məruz qalıblar. Mənim Rusiya dövlətinə qarşı heç bir fikrim olmayıb. Mən yalnız Azərbaycan xalqını təhqir edən deputatın dediklərinə cavab vermişəm. Yəni deportasiya olunma səbəbi ilə göstərilən arqumentlər tamamilə yanlışdır. Bir daha qeyd edirəm ki, mənim Rusiya dövlətinə və xalqına qarşı heç vaxt neqativ fikrim olmayıb.

Çox arzulayardım ki, Rusiyanın Xarici İşlər Nazirliyi məsələyə münasibət bildirsin, baş verənlərə düzgün, obyektiv bir izah versin. Bu günə qədər Rusiya Xarici İşlər Nazirliyi məsələyə aydınlıq gətirməyib".

**Deputat deyib ki, ona qarşı qadağa davam edərsə, Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunda fəaliyyətini davam etdirməyəcək**: "Azərbaycan və Rusiya arasında 2022-ci ilin fevralına müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə imzalanıb və bu sənəd əsasında iki ölkə arasında əməkdaşlıq davam edir. Amma çox təəssüf ki, bu bəyannamənin ruhuna uyğun gəlməyən belə hərəkətlər baş verir. Təyyarə qəzası və mənə qarşı qoyulmuş qadağa Rusiya-Azərbaycan münasibətləri baxımından yaxşı bir göstərici deyil. Əgər münasibətlərimiz qarşılıqlı hörmət əsasında davam etdirilməlidirsə, belə hadisələrə yol verilməməlidir. Əgər anlaşılmazlıqlar baş verirsə, bu, ikitərəfli qaydada araşdırılmalı və aydınlıq gətirilməlidir. Gizli məqamlar qalmamalıdır. Hər bir halda təyyarə ilə bağlı hadisə Rusiyanın ərazisində, Rusiyanın hərbçiləri tərəfindən törədilib. Rusiya buna görə rəsmi şəkildə üzr istəməli və müvafiq kompensasiyalar ödəməlidir".

# İrandan Azərbaycana yeni dəhliz təklifi

## Köhnə layihə təzə adla?

**İran TRACECA çərçivəsində İran-Azərbaycan-Gürcüstan tranzit dəhlizinin yaradılmasını təklif edir. "Yeni Müsavat" xəbər verir ki, bu barədə İran mətbuatına ölkənin yol və şəhərsalma nazirinin müşaviri Amin Tərfe bildirib. O qeyd edib ki, sözügedən təşəbbüs İranın yol və şəhərsalma naziri Fərzanə Sadiqin bu yaxınlarda Azərbaycana səfəri zamanı səsləndirilib və rəsmilər tərəfindən bəyənilib.**

Xatırladaq ki, TRACECA beynəlxalq nəqliyyat dəhlizi Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Sazişin 14 iştirakçı ölkəsinin - Azərbaycan, Ermənistan, Bolqarıstan, Gürcüstan, İran, Qazaxıstan, Qırğızıstan, Moldova, Rumınıya, Tacikistan, Türkmənistan, Türkiyə, Ukrayna və Özbəkistanın nəqliyyat sistemini əhatə edir.

İranın bu proqram çərçivəsində ayrıca Azərbaycan və Gürcüstanla nəqliyyat dəhlizi yaratmaq ideyası maraqlı görünür. Çünki üç ölkə İranın təşəbbüskarı olduğu mahiyyətcə eyni olan Fars körfəzi-Qara dəniz nəqliyyat dəhlizi layihəsində birgə fəaliyyətə dair müqavilə imzalayıblar. Bu layihəni 2016-cı ildə İran irəli sürüb, mahiyyəti Asiyadan yüklərin öz ərazisi ilə Ermənistan, Gürcüstan üzərindən Avropanın Qara dəniz sahillərinə çatdırmaqdan ibarətdir. 2021-ci ilədək İranın dəvətinə baxmayaraq, Azərbaycan Ermənistan amilinə görə layihəyə maraq göstərməyib.

Daha sonra İranla Azərbaycan arasında Araz çayı üzərindən yeni avtomobil körpüsünün tikintisinə dair müqavilə imzalanıb və 2023-cü ilin dekabrında körpünün rəsmi açılışı baş tutub. Rəsmi məlumata görə, hazırda dövlət sərhədindən buraxılış məntəqəsinin ikinci fazada genişləndirilməsi məqsədilə müvafiq işlər aparılır. Genişləndirilmə işlərindən sonra dövlət sərhədindən buraxılış məntəqəsi 7 gediş və 7 gəliş xətləri üzrə gündəlik olaraq 500 giriş və 500 çıxış olmaqla, ən azı 1000 yük nəqliyyat vasitəsini qəbul edə biləcək.

Regionda icra olunan dəmək olar ki, bütün beynəlxalq əhəmiyyətli layihələrdən kənarda qalan Ermənistan Fars körfəzi-Qara dəniz layihəsində iştirakda son dərəcə maraqlıdır. İrəvan dəfələrlə ən yüksək səviyyədə bu layihə üzrə sazişləri ratifikasiya etməyə hazır olduğunu elan edib. Lakin İranın təşəbbüskarı olduğu layihə hələ də danışıqlardan real mərhələyə keçməyib. Belə ki, layihə iştirakçısı olan ölkələrin nümayəndələrindən ibarət işçi qrupun sonuncu - altıncı iclası 2022-ci ilin aprelində Sofiyada keçirilib, orada ölkələr arasında imzalanacaq sazişin 6-cı dəfə işlənmiş "son" variantı razılaşdırılıb. İran, Bolqarıstan və Ermənistan nümayəndələrinin imzaladığı sazişin Azərbaycan, Yunanıstan və Gürcüstan tərəfindən də imzalanması üçün mayın sonuna qədər vaxt müəyyənləşdirilib. Lakin ötən müddət ərzində bu imzalanmaya dair hər hansı açıqlama qeydə alınmayıb.

Maraqlıdır ki, Ermənistan tərəfi dəhlizin bir qolunun Azərbaycan üzərindən keçməsi ilə razılaşmadığını dəfələrlə bəyan edib. İrəvan həm bu dəhliz, həm də qoşulmağa can atdığı Şimal-Cənub dəhlizi ilə yükdaşımaların müddətini azaltmaq üçün artıq 15 ildən yuxarıdır ki, ölkənin İran sərhədindən başlayaraq, Gürcüstan sərhədinə qədər beynəlxalq səviyyəli avtomobil yolunun tikintisinə start verib. Tikintinin çox mühüm hissəsi xarici maliyyə qurumlarından, xüsusilə də Avrasiya İqtisadi İttifaqının maliyyə qurumu olan Avrasiya İnvestisiya Bankından alınan kreditlər hesabına həyata keçirilir. Yalnız son 2 ildə magistralın tikintisi prosesində canlanma müşahidə olunmaqdadır. Yolun bir neçə hissəsinin tikintisi Avrasiya İnvestisiya Bankının krediti hesabına və İran şirkətləri tərəfindən icra olunur. İrəvanda aparılan hesablamalara əsasən, magistralın tikintisinin 2032-33-cü illərdə tam başa çatdırılması gözlənilir. Məlumdur ki, TRASEKA Avropa İttifaqı və ABŞ tərəfindən dəstəklənir. İranın təşəbbüskarı olduğu Fars körfəzi-Qara dəniz nəqliyyat dəhlizi layihəsinə münasibətdə belə dəstək yoxdur. Üstəlik, həm ABŞ, həm də Avropa İttifaqının İrana yönəlik iqtisadi sanksiyaları mövcuddur, Vaşinqton hətta onları getdikcə sərtləşdirir. Buna görə də Tehranın təşəbbüskarı olduğu layihənin reallaşması mümkün deyil. Bunu nəzərə alan İran eyni marşrut üzrə yükdaşımaların təşkilini nəzərdə tutan prosesi TRASEKA çətiri altına çəkmək istəyir. Bu, layihəni sanksiyalardan qoruya və eyni zamanda iştirakçı ölkələri fəallaşmağa stimullaşdıra bilər.

Əslində İranın yeni təşəbbüsü olmadan belə, üç ölkə Asiyadan Avropaya yükdaşımaların təşkilində əməkdaşlıq edir. Şimal-Cənub nəqliyyat dəhlizi çərçivəsində İran üzərindən ötürülən yüklər Azərbaycandan Rusiya və Gürcüstana nəql edilir. Həm Azərbaycan, həm də Gürcüstan Asiyadan Avropaya Aİ və ABŞ-ın dəstəyinə malik Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi layihəsində uğurla əməkdaşlıq edirlər. Hər iki ölkənin nəqliyyat-logistika infrastrukturu sürətlə inkişaf etdirilir. Azərbaycan Xəzərin o tayından, eyni zamanda İrandan gələn yüklərin qəbulu və qısa müddətdə ötürülməsini təmin etmək üçün öz ərazisində infrastrukturun qurulmasına milyardlarla manat investisiya yatırır. Hazırda İran sərhədinə doğru uzanan Ələt-Osmanlı-Astara dəmiryol xəttinin əsaslı şəkildə yenidənqurulması işləri həyata keçirilir. Eyni zamanda Rusiya sərhədinə qədər olan dəmiryol infrastrukturunun müasirləşdirilməsi prosesi yekunlaşmaq üzrədir.

Bundan əlavə, Azərbaycan İrana və Rusiyaya avtomobil yollarının ötürücülük imkanlarının genişləndirilməsi işlərini başa çatdırmaqdadır. Gürcüstan istiqamətində işlər artıq yekunlaşdırılıb.

İranın isə görüləsi işləri kifayət qədər çoxdur. Tehran 2023-cü ildə bağlanmış müqavilə əsasında nəqliyyat dəhlizlərinin inkişafı üçün zəruri olan Rəşt-Astara dəmiryol xəttinin tikintisi üçün Rusiyadan 1,3 milyard avro kredit almalıdır. Lakin ötən müddət ərzində dəmiryol xəttinin keçdiyi ərazidə torpaq alınması işləri başa çatmadığına görə xəttin texniki-iqtisadi layihələndirilməsinə belə başlanmayıb. Bu səbəbdən Rusiya ilə yolun tikintisinə dair lazım olan sazişlərin imzalanması da baş tutmur.

Qeyd etdiyimiz kimi, Azərbaycan yalnız İran üzərindən deyil, Mərkəzi Asiya üzərindən də Avropaya və əksinə yükdaşımaların reallaşması üçün açar ölkədir. Rəsmi Bakı həm dəniz vasitəsilə (Ələt Beynəlxalq Dəniz Limanı), həm də İran üzərindən gələcək yüklərin qəbulu üçün infrastrukturun formalaşdırılmasını əsasən başa çatdırıb. Hazırda onun zəruri yerlərdə genişləndirilməsi üzərində işlər aparılır. Bu baxımdan, əgər İranın yeni dəhliz təşəbbüsü reallaşacaqsa, Azərbaycan onunla daşınacaq yükləri qəbul edib ötürməyə tam hazırdır.

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 78 (8688) 7 may 2025



# Taykeş ayaqqabı söhbəti bitdi

## Zabit Nəbizadə: "Qarderobun işığını yandırmadan ayaqqabının birini qara, birini isə qəhvəyi rəngdə geyinmişəm"

**"May ayının 1-də doğum günüm idi. Səhər tezdən durub getmişəm ATV kanalında "Rəngarəng" verilişinə. Oradan da günorta çıxıb getmişəm "Xəzər" kanalına. Axşam da doğum günümü qeyd etmək üçün dostların təkidi ilə restoranda olmuşam. Bilirsiniz ki, mən uzun illərdir Milli Konservatoriyada muğam fənnini tədris edirəm. Səhəri gün mənə zəng gəldi ki, tort kəsiləcək, rektor da gələcək. Mən də səhər saat 8-də yuxudan durdum. Qarderobun işığını yandırmadan ayaqqabının birini qara, birini isə qəhvəyi rəngdə geyinmişəm. Nə maşında fikir verməmişəm, nə də auditoriyada uşaqlar görüb. Mənim maşında səhnə ayaqqabım var. Əgər görsəydim əlbəttə ki, dəyişərdim. Bunu bilərəkdən etməmişəm, nə də ki, dəblə gedən adam deyiləm ki, bunu edim. Ola bilsin ki, qadınlarda belə bir dəb var, amma kişilərdə bu yoxdur".**

Bunu Moderator.az-a açıqlamasında **Xalq artisti Zabit Nəbizadə** deyib. O, daha sonra əlavə edib: "Bu fotonu gərək işıqlandırmazdılar. Çünki bu günə qədər nə qalmaqalda olmuşam, nə də ki, heç kimlə pis münasibətim yoxdur ki, bunu bilərəkdən yaysın. Mən 35 ildir ki, sənətdə və səhnədəyəm. Kollektivlə şəkil çəkdirəndən sonra bir sənət dostum yaxınlaşıb mənə ayaqqabılarımın dəyişik olduğunu dedi. Mən o şəkli sildirə də bilərdim, amma etmədim. Çünki burada böyük bir qəbahətin olduğunu düşünmürəm. Əslində bu hadisə mənim nə qədər məsuliyyətli olmağımdan, həmkarlarıma olan hörmətimdən irəli gəlir. Mən həmin görüş üçün gecikirdim. İstəməzdim ki, kimsə gəlib məni gözləsin. Bu fotonu paylaşan səhifələrdəki rəyləri oxuyuram, hamı onları qınayır, bir yaxşı rəy yazan yoxdur. Xalqın sevgisi budur. Yaqub Məmmədov 40 il bundan əvvəl sübh tezdən evdən çıxıb, Hacıqabulda görüb ki, ayaqqabılarını səhv, taykeş geyinib. Sonra Kürdəmirdən ayaqqabı alıb, Ağcabədiyə toya gedib".

**Xalq artisti televiziyalarda qonorar sisteminin olmadığını, müğənnilərin qazanc yerinin yalnız toydan olduğunu bildirib:** "Ölkədəki toylarda oxunan mahnıların əksəriyyəti Şirvan aşıqlarının havalarıdır. Aşıq musiqisi ozandan gəlir. Aşıq yarananda xanəndə heç yox idi. Aşıq xanəndənin ustadı olub. Xanəndələr aşıq yanında oxuyub püxtələşiblər. Mən gedib toyda çıxış edəndə istənilən mahnını oxuya bilərəm. Tələbat tək pul qazanmaq deyil. Mən bu sənətə gələndə o qədər toylardan imtina edib demişəm ki, mən özümü radio və televiziya üçün hazırlayıram. Radioda, televiziyada oxuyanda bizə qonorar verirlər? Yox! Amma mən başqa ölkədə oxuyanda konsertə görə bir anons yazırlar mənim üçün, az qala həmin konsertin pulunu ödəyirlər. Tək mənə yox, istənilən xanəndəyə. Bu, Fransada, Türkiyədə, Hollandiyada olub. Bizim televiziyalarda belə bir şey yoxdur. Müğənni nə etməlidir axı?!"

**Gənc xanəndə Rəqsanə Ağayeva muğam müsabiqəsində seçimlərin ədalətli keçirilmədiyini iddia edib. Bu barədə gənc ifaçı sosial şəbəkə hesabında paylaşım edib.**

# Muğam müsabiqəsi seçimlərində "dayı" ittihamı

## Xalq artisti: "Bütün bu proseslər Azərbaycan Dövlət Televiziyası tərəfindən lentə alınır, yəni hər şey sənədlidir, şəffafdır..."

"Müsabiqədə məni bilərəkdən kəsdilər. Şəffaflıq yoxdur. Hər münsif öz tələbəsini keçirir növbəti 20-liyə. Nə üçün məni kəsdiklərini soruşduqda heç kim cavab vermir, deyirlər səni gərək Şamaxıdan seçib gətirməyərdik. Xaric oxumuram, səsimdə xırıltı yox. Nə vaxta qədər haqsızlıq olar?" - deyə gənc xanəndə paylaşımında bildirib.

Tanınmış müğənni Nişanə Baxışova da paylaşıma dəstək verərək illər əvvəl eyni haqsızlıqla üzləşdiyini bildirib.

Münsiflər heyətinin üzvlərindən olan **Xalq artisti Nəzakət Teymurova** iddialarla bağlı Modern.az-a açıqlama verib. Onun sözlərinə görə, Rəqsanə birinci turda bərbad gündə ifa etmişdi, həm də aqressiv idi, ağzına gələni danışırdı, ifaçıları regionlara bölürdü: "Seçilməyənlər arasında mənim də tələbələrim olub. Eləcə də başqalarının da tələbələrindən seçilməyənlər var. Yəqin həmin gün yaxşı oxumayıb ki, keçməyib. Ondan da güclü tələbələr olub ki, imtahandan keçməyib. Yəqin ki, ondan gözəl ifaçılarımız olub ki, onlar seçilib. Şikayət edənlərdən biri də mənim magistratura pilləsində təhsil alan tələbəm - Nuranə Haqverdiyeva olub. Onda mən öz tələbəmi seçərdim də. Yəni 8 münsifin hər biri qərar verməlidir ki, hansı ifaçı digərindən üstün oxuyub. Muğam müsabiqəsindən sonra həmişə belə fikirlər irəli sürülür. İnşallah, Rəqsanə özünü yenidən sınayar. Özünü yaxşı göstərsin ki, yenidən muğam müsabiqələrinə qatıla bilsin".

Xatırladaq ki, IX "Muğam" Televiziya Müsabiqəsi mayın 13-dən start götürəcək. Müsabiqənin seçim turları aprelin 3-də yekunlaşıb. Seçim turlarında münsiflər heyəti respublikanın bütün bölgələrindən müsabiqəyə sənəd təqdim edən iştirakçılar sırasından 20 nəfər gənc və 10 nəfər yeniyetməni seçib. Münsiflər heyətinin üzvləri arasında xalq artistləri Arif Babayev, Mələkxanım Əyyubova, Mənsum İbrahimov, Nəzakət Teymurova, Səkinə İsmayılova, Sərdar Fərəcov, Vamiq Məmmədəliyev, Əməkdar mədəniyyət işçisi İlqar Fəhmi təmsil olunurlar.

**Xalq artisti, muğam müsabiqəsinin münsiflər heyətinin üzvü Mələkxanım Əyyubova "Yeni Müsavat"a açıqlamasında müsabiqədə qeyri-şəffaflıq ittihamlarına bu cür cavab verib:** "Muğam müsabiqəsi artıq uzun illərdir ki, ölkəmizdə ənənəvi olaraq keçirilir və bu il bu mötəbər layihənin 20 illik yubileyi qeyd olunur. Layihə ölkəmizin birinci xanımı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilir. Müsabiqədə qohumbazlıq, "tələbəsi var", "kiminsə dayısı var" kimi qeyri-sağlam yanaşmalara qətiyyən yer yoxdur. Burada peşəkarlıq və sənətə sədaqət əsas meyardır. Ən azı onu qeyd etməliyik ki, münsiflər kürsüsündə əyləşən hər bir sənət adamının 45-50 illik zəngin sənət stajı, təcrübəsi və nüfuzu var. Bu şəxslər xalq və dövlət tərəfindən uzun illərdir sənətkar kimi qəbul olunmuş və hörmət qazanmış şəxslərdir. Onların verdiyi qərarlar yalnız və yalnız sənət prinsipləri üzərində qurulur. Təkcə bu il müsabiqə üçün 300-dən çox ifaçı dinləmişik. Onların arasında həm azyaşlı uşaqlar, həm də yetkin yaşlı ifaçılar var idi. Dinləmələr Sumqayıtda, ölkənin müxtəlif rayonlarında, eləcə də Bakıdakı Muğam Mərkəzində 3 gün ardıcıl şəkildə həyata keçirildi. Bu dinləmələr yüksək diqqət və məsuliyyətlə təşkil olunub. Təbii ki, bu qədər çox iştirakçının arasından cəmi 20 nəfəri seçmək asan məsələ deyil. Biz həmin səsləri dəfələrlə çək-çevir edir, təkrar-təkrar dinləyirik. Məqsədimiz budur ki, istedadlı heç bir iştirakçı diqqətdən kənarda qalmasın".



**Mələkxanım Əyyubova dedi ki, Rəqsanə Ağayevanın ittihamları haqda bunları dedi:** "O və digər qız Şamaxıdan qatılmışdı. Həmin gün qızların səsi işləmirdi, xırıltılı idi. Bütün bu proseslər Azərbaycan Dövlət Televiziyası tərəfindən lentə alınır və arxivdə qalır. Yəni hər şey sənədlidir, şəffafdır. Düşündük ki, onlara bir şans verək, səsi o gün yaxşı çıxmasa da, bəlkə şəhər mərhələsində daha yaxşı performans göstərə bilər deyə. Amma indi düşünürük ki, daha bu cür güzəştə getməyək. Çünki sonra biz çətin vəziyyətə düşürük. Bütün bu müddət ərzində müsabiqəyə qatılan hər bir uşağa, hər bir iştirakçıya bərabər diqqət və qayğı göstərilib, onlar peşəkar şəkildə dinlənilib. Həmin qızlardan biri Nəzakət Teymurovanın tələbələrindən biridir. Əgər bu proseslərdə şəffaflıq prinsipi qorunmasaydı, elə Nəzakət xanım özü onu, öz tələbəsini, rahatlıqla növbəti mərhələyə keçirə bilərdi. Yaxud o qız mənim yerlimdir, özü də Şamaxıdandır - istəsəydim, yerlibazlıq edib onu da irəli çəkə bilərdim. Amma biz bu müsabiqədə şəxsi münasibətləri, bölgə mənsubiyyətini, tanışlığı və qohumluğu əsas götürmürük. Çünki bizim üçün bölgə fərqi yoxdur. Azərbaycanın hər bölgəsi bizim üçün doğmadır, hər bölgənin övladı bizim balamızdır. Biz bütün iştirakçılara bərabər münasibət göstərməyə çalışırıq".

**Xalq artisti dedi ki, qərarlar bir nəfərin deyil, münsiflər heyətinin birgə müzakirəsi ilə verilir:** "Mənimlə yanaşı daha 7 nəfər təcrübəli münsif, icraçı direktor və bəstəkar iştirak edir. Yəni hər bir qərar ortaq məsləhətləşmələr əsasında formalaşır. Heç bir fərdi və ya subyektiv mövqe əsas götürülmür. Təbii ki, hər birimizin öz seçimləri olur, amma yekun qərarı birlikdə, sonda bir daha dinləyib təkrar müzakirə edərək veririk. Bu səbəbdən də bir daha vurğulayıram: seçimlər xalqın və dövlətin gözü qarşısında, tam şəffaf şəkildə aparılır. Təbii ki, sənət olan yerdə, xüsusilə də istedadların yarışı baş verdiyi bir mühitdə hər zaman söz-söhbətlər, narazılıqlar olur, bu, labüddür və həmişə də olacaq. 2019-cu ildə də oxşar bir qalmaqal yaşanmışdı və o hadisənin sədası, "yuxarılara" qədər çatmışdı. O zaman da məsələyə çox həssas yanaşmışdıq. Gözdən əlil olan bir qız, bizim universitetin tələbəsi müsabiqəyə qatılmışdı. Hərçənd ki, onun səsi zəif idi və digər iştirakçılarla müqayisədə çox geri qalırdı. Rəhmətlik Əlibaba müəllim bu məsələyə çox humanist yanaşaraq dedi: "Gəlin bu qızı da qəbul edək. Gözdən əlildir, onun qəlbini qırmayaq. Heç nə olmaz, birinci və ya ikinci mərhələdə kənarlaşdırarıq". Biz də qəbul etdik. Lakin sonradan ciddi problemlərlə qarşılaşdıq. Həmin iştirakçı tez-tez narazılıq yaradır, dava-dalaş salırdı. Axı bu, sırf peşəkar müsabiqədir. Burada biz heç kəsə güzəşt edə bilmərik. İfaçının fiziki məhdudiyyətinə yox, onun səhnədəki çıxışına baxırıq. Seçim zamanı əsas meyar yalnız budur: kim daha yaxşı ifa edir, kim səhnəyə daha hazırdır".

**M.Əyyubova dedi ki, indi də oxşar narazılıq yaranıb:** "Yenə də bizi haqsız yerə ittiham edirlər. Biz bu gün də çalışırıq ki, ən layiqli namizədləri seçək, istedadlara ədalətli qiymət verək. Əlbəttə, bəzi iştirakçılar və onların yaxınları incik düşür. Deyirlər ki, "biz də yaxşı oxuyurduq, niyə bizi seçmədiniz?" Bəli, ola bilər, onlar da pis oxumayıb. Amma biz məcburuq ki, daha yaxşı oxuyanı, daha düzgün ifa edəni seçək. Çünki bizim qulağımız artıq o qədər peşəkar şəkildə öyrəşib ki, bir nəfəsin düz alınmaması, səsin detona düşməsini, texniki səhvləri dərhal ayırd edə bilirik. Bəzən zalda əyləşənlər hansısa ifaçı oxuyandan sonra ayağa qalxıb alqışlayır. Ancaq biz onu alqışlamırıq. Çünki bizim üçün alqış yox, səsin tembri, intonasiyası, texniki düzgünlüyü önəmlidir. Biz bilirik - kim nəfəsi harada düzgün almadı, hansı notda səhv etdi, hansı anda səsindən çıxıb musiqidən uzaqlaşdı. Bu isə artıq peşəkar yanaşma tələb edir".

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 78 (8688) 7 may 2025

**Həftənin əvvəlində ticarət sessiyalarının başlanğıcında Brent markalı etalon neftin qiyməti 4 faizdən çox azalaraq 59 dollardan aşağı düşüb. Bu, 2016-cı ilin aprelindən bəri qeydə alınmış ən aşağı göstəricidir. ABŞ-da hasil olunan WTI markalı neftin qiyməti isə təxminən 56 dollara qədər ucuzlaşıb.**

# 2016-cı ilin neft kabusu təkrarlana bilərmi?

## Trampın yeni iqtisadi kursu, tarif müharibələri, Yaxın Şərqdəki geosiyasi gərginliklər qlobal enerji bazarındakı qiymətlərə mənfi təsir edir - proqnozlar ucuzlaşmanın davam edəcəyi yönündədir...



Treyderlər səkkiz OPEK+ üzvünün, o cümlədən Səudiyyə Ərəbistanı və Rusiyanın iyun ayında gündəlik hasilatı 411 min barel artırmaq qərarına reaksiya veriblər. Bu qərar təklif bolluğu ilə bağlı narahatlıqlar və ABŞ Prezidenti Donald Trampın başladığı ticarət müharibəsi nəticəsində yaranan iqtisadi qeyri-sabitlik fonunda qəbul olunub.

Ötən ay OPEK bazarı təəccübləndirərək hasilatı məhz eyni həcmdə - 411 min barel artıracağını açıqlamışdı. Həmin qərar və ABŞ-ın ticarət tariflərinin qlobal iqtisadiyyata zərər verə biləcəyi ilə bağlı qorxular nəticəsində Brent markalı neftin qiyməti aprel ayında təxminən 20 faiz azalıb.

OPEK+ qrupunun qiymətlərin aşağı olduğu şəraitdə hasilatı bir daha artırmaq qərarı müşahidəçilər tərəfindən strategiyada mühüm dəyişiklik kimi qiymətləndirilir.

Modern.az-ın məlumatına görə, OPEK-in keçmiş əməkdaşı, hazırda "Rystad Energy" konsaltinq şirkətində çalışan Xorxe Leon deyib ki, OPEK+ indi neft bazarında faktiki olaraq çökməyə səbəb olub. Keçən ay qəbul olunan qərar artıq ciddi xəbərdarlıq idi. Bugünkü qərar isə açıq şəkildə göstərir ki, Səudiyyə Ərəbistanının rəhbərlik etdiyi qrup artıq strategiyasını dəyişir və illərlə hasilatın azaldılmasından sonra bazar payını artırmaq niyyətindədir.

Son üç il ərzində OPEK+ ümumi hasilatı gündəlik 6 milyon barel azaldaraq qiymətləri dəstəkləməyə çalışıb. Bu strategiya 2022-ci ildə neftin qiymətini 90 dollar səviyyəsində saxlamağa imkan verib.

Kartel daxilindəki gərginlik də artmaqdadır. Xüsusilə Qazaxıstan "Chevron" şirkətinin idarə etdiyi Tənqiz yatağında hasilatı artıraraq milli maraqları qrup kvotalarından üstün tutduğunu bəyan edib.

Buna cavab olaraq Səudiyyə Ərəbistanı hasilat məhdudiyyətlərini yumşaltmağa başlayıb və bu aydan etibarən hasilatı artırmağa qərar verib.

Səudiyyə rəsmiləri artıq neft təchizatının artırılmasına qarşı deyil, hətta bu addım qiymətlərin uzun müddət aşağı səviyyədə qalmasına səbəb olsa belə. Bu krallığın dövlət büdcəsini neftin qiymətinin azalması fonunda balanslaşdırmaq səylərinə baxmayaraq qəbul olunmuş strategiya kimi dəyərləndirilir. Lakin niyə belə bir riskli addımın atıldığı hələ də aydın deyil.

2016-2025-ci illər arasında neftinin qiyməti müxtəlif səbəblərdən ciddi dəyişikliklərə məruz qalıb. Hər il neft bazarına təsir edən fərqli faktorlar - pandemiya, müharibə, iqtisadi siyasətlər və OPEK+ qərarları - qiymətlərin taleyini müəyyən edir.

**2016-cı il**

2016-cı il neft bazarı üçün çətin bir dövr oldu. Brent markalı neftin orta illik qiyməti cəmi 45 dollar təşkil etdi. Qiymətlərin bu qədər aşağı düşməsinin başlıca səbəbi OPEK+ ölkələrinin hasilatı artırması və qlobal tələbin zəifləməsi idi. Eyni zamanda əvvəlki illərdə neftin yüksək qiyməti bazara təklifin həddindən artıq artmasına səbəb olmuşdu ki, bu da qiymətləri daha da basqı altında saxladı.

**2017-ci il**

2017-ci ildə bazarda nisbətən sabitlik müşahidə edildi. OPEK və bəzi qeyri-OPEK ölkələrinin hasilatı azaltmaq qərarı qiymətlərin 54.71 dollar/barel səviyyəsinə yüksəlməsinə şərait yaratdı. Bu addım bazarda artıq neftin qarşısını aldı və qiymətlərin tədricən sabitləşməsinə səbəb oldu.

**2018-ci il**

2018-ci ildə neft bazarına olan tələbin artması qiymətləri də yuxarı çəkdi. Orta illik qiymət 71 oldu. Qlobal iqtisadi artım və sənaye fəaliyyətinin genişlənməsi neftə olan ehtiyacı artırdı. Lakin ilin sonuna doğru ABŞ-da şist nefti hasilatının artması və OPEK+ daxilində bəzi fikir ayrılıqları qiymətlərin yüksəlməsinin qarşısını aldı.

**2019-cu il**

2019-cu ildə qiymətlər bir qədər geriləyərək 64 dollar oldu. Dünyada ABŞ və Çin arasında baş verən ticarət müharibəsi, eləcə də qlobal iqtisadi tənəzzül qiymətləri endirdi. Bununla belə, OPEK+ hasilatı məhdudlaşdırmaqla qiymətlərin daha da düşməsinin qarşısını aldı.

**2020-ci il**

2020-ci il dünya üçün misilsiz sınaq ili oldu. COVİD-19 pandemiyası nəticəsində iqtisadi fəaliyyət dayandı, nəqliyyat sektorunda tələbat kəskin azaldı və bu da neftə ehtiyacı minimuma endirdi. Bu səbəbdən Brent neftinin qiyməti 42 dollara qədər ucuzlaşdı. Bu, son illərin ən aşağı göstəricisi idi. OPEK+ bazarı sabitləşdirmək üçün təcili məhdudiyyətlərə getsə də pandeminin təsiri daha ağır oldu.

**2021-ci il**

Pandemiyadan sonra 2021-ci ildə qiymətlər yenidən yüksəldi. Brent neftinin qiyməti 71 dollar səviyyəsinə çatdı. Səyahətlərin və sənaye istehsalının bərpası, həmçinin vaksinasiya prosesi ilə bağlı müsbət gözləntilər tələbi artırdı. OPEK+ isə təklifə nəzarət etməyə davam edirdi.

**2022-ci il**

2022-ci ildə Ukrayna müharibəsinin başlaması enerji bazarına ciddi zərbə vurdu. Qərbin Rusiya neftinə tətbiq etdiyi sanksiyalar və təchizat riskləri qiymətləri sürətlə artırdı. Nəticədə Brent neftinin orta illik qiyməti 101 dollara yüksəldi. Bu, son illərin ən yüksək göstəricisi oldu və enerji təhlükəsizliyi gündəmin əsas məsələsinə çevrildi.

**2023-cü il**

2023-cü ildə bazarda bir qədər sabitlik yarandı. Orta qiymətlər 82,5 dollar oldu. Qlobal tələbat artsa da, ABŞ və Çin arasında davam edən iqtisadi gərginlik və dünya iqtisadiyyatındakı zəif bərpa prosesi qiymətlərin daha da yüksəlməsinin qarşısını aldı. OPEK+ isə hasilat siyasətində ehtiyatlı davranaraq bazarın balansını qorumağa çalışdı.

**2024-cü il**

2024-cü ildə Brent neftinin orta qiyməti 81,7 dollar oldu. Bu artımın əsas səbəb arasında Yaxın Şərqdə geosiyasi gərginliklər, təchizat məhdudiyyətləri və əsas istehsalçı ölkələrin hasilat siyasətində dəyişikliklər var idi. Eyni zamanda inkişaf etməkdə olan ölkələrdə sənaye artımı və ABŞ-da enerji tələbatının artması bazarı canlandırdı.

**2025-ci il**

İl başlayandan neftin qiyməti əsasən ucuzlaşma istiqamətində davam edir. ABŞ Prezidentinin yeni iqtisadi kursu, tarif müharibələri, Rusiya-Ukrayna müharibəsi, Yaxın Şərqdəki geosiyasi gərginliklər, qlobal enerji bazarındakı qeyri-müəyyənliklər qiymətlərə təsir edir. Hələlik proqnozlar ucuzlaşmanın davam edəcəyi yönündədir.

❑ **"Yeni Müsavat"**

# Banklar köhnəlmiş dolları niyə qəbul etmir?



**Son günlər bəzi banklar və valyutadəyişmə məntəqələri buraxılış ili köhnə olan dollar əsginaslarını qəbul etmir. Səbəb kimi yeni əsginasların dövriyyədə olmasını göstərir. Bəzi banklar isə heç bir səbəb demədən köhnə əsginasları qəbul etməkdən imtina edir.**

Maraqlıdır, bankların köhnə dolları qəbul etməməsinin səbəbi nədir?

**İqtisadçı Kamran Məmmədli** Bakı-xəbər.com-a şərhində bildirib ki, Amerika qanunvericiliyində əsginasların dövriyyəsi ilə bağlı qadağalar mövcud deyil: "Əsginaslar buraxıldıqca, Amerika Mərkəzi Bankı köhnələri dövriyyədən çıxarmadan əvəzləyir. Hətta vətəndaşların əlində 1920-1930-cu illərdə buraxılmış əsginaslar var ki, Amerika Mərkəzi Bankı onları qəbul edir. Ölkəmizdə də köhnə dollarla bağlı eyni qaydalar tətbiq olunur. Məlumat üçün deyim ki, köhnə pul vahidləri dövriyyədən çıxarılmayıbsa, onun banklar tərəfindən qəbulunda məhdudiyyət ola bilməz. Bu, istər xarici, istərsə də yerli valyutaya aiddir. Ancaq valyuta mübadiləsi bankların öz işidir. Azərbaycanda dollar populyar valyuta olduğuna görə insanlara qəribə gəlir ki, onu niyə manata dəyişmirlər. Lakin lirə və rublu da müəyyən banklar dəyişməkdən imtina edir. Banklar istənilən valyuta ilə əməliyyat apara bilər. Bu onların daxili işidir. Bank, ümumiyyətlə, dollar mübadiləsindən imtina da edə bilər. Çünki banklar hansısa valyutanı ona görə alır ki, daha sonra onu eyni formada sata bilsin. Yəni bizim banklar valyutanı ona görə alır ki, o valyutanın alıcısı da olsun. Buraxılış ili köhnə olan dolları, hər halda, heç kim almaq istəməz, bu səbəbdən də banklar həmin əsginası qəbul etməkdə maraqlı deyil".

# Unun topdansatış qiymətləri açıqlandı

**May ayın 5-nə Azərbaycandakı un istehsalçılarının topdansatış məntəqələrində 50 kq-lıq un kisəsinin satış qiyməti 26,6-28,2 manat, o cümlədən Bakı şəhərində və Abşeron rayonunda 27-27,4 manat civarında dəyişib.**

Bu barədə Prezident yanında Antiinhisar və İstehlak Bazarlarına Nəzarət Dövlət Agentliyi məlumat yayıb.

"Ölkə üzrə unun ən aşağı topdansatış qiyməti 26,6 manat olmaqla Şabran rayonunda, ən yüksək topdansatış qiyməti 28,2 manat olmaqla Gəncə şəhərində qeydə alınıb", - deyə məlumatda qeyd olunub.

Xatırladaq ki, aprelin 28-nə Azərbaycandakı un istehsalçılarının topdansatış məntəqələrində 50 kq-lıq un kisəsinin satış qiyməti 26,6-28,2 manat, o cümlədən Bakı şəhərində və Abşeron rayonunda 27-27,4 manat civarında dəyişib. Ölkə üzrə unun ən aşağı topdansatış qiyməti 26,6 manat olmaqla Şabran rayonunda, ən yüksək topdansatış qiyməti 28,2 manat olmaqla Gəncə şəhərində qeydə alınıb.

# Metro "Ağ şəhər"ə və NZS-ə gəlir

## Bakı Metropoliteninin illik sərnişindaşıma gücü 88 milyon nəfərə çatdırılacaq

**Bakıda yeni metrostansiyaların inşası ilə bağlı növbəti mərhələyə keçilir. 2030-cu ilə qədər reallaşdırılması nəzərdə tutulan metro genişlənməsi layihəsi çərçivəsində 10 yeni stansiyanın tikiləcəyi ərazilərin müəyyənləşdirilməsi prosesi yekunlaşmaq üzrədir. Bu barədə "Bakı Metropoliteni" QSC-nin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Bəxtiyar Məmmədov məlumat verib.**

Onun sözlərinə görə, hazırda layihə üzrə son tamamlama işləri görülür və yaxın vaxtlarda tikinti mərhələsinə keçilməsi planlaşdırılır.

Layihəyə əsasən, tikiləcək 10 yeni stansiyadan 6-sı "Bənövşəyi", 4-ü isə "Yaşıl" metro xəttinin tərkibində olacaq. Yeni şəbəkənin "Nizami", "Sahil" və "Xətai" stansiyalarında digər xətlərə keçidi təmin etməsi nəticəsində sərnişin axınının optimallaşdırılması gözlənilir. Bu keçidlər metronun müxtəlif istiqamətləri arasında əlaqəni gücləndirəcək və ümumi sərnişin yükünü daha balanslı bölüşdürməyə imkan verəcək.

"Ağ şəhər" və NZS qəsəbəsində inşa olunacaq stansiyalar metro xətlərinin ayrılmasını tamamlayacaq və intervalların azalmasına mühüm töhfə verəcək. Xüsusilə bu zonalarda yaşayan sakinlər üçün nəqliyyat əlçatanlığı xeyli yaxşılaşacaq.

Məlumata görə, layihənin tam reallaşması nəticəsində Bakı Metropoliteninin illik sərnişindaşıma gücü 88 milyon nəfərə çatdırılacaq. Bu da şəhərin artan əhalisi və sürətlə inkişaf edən ətraf əraziləri nəzərə alaraq, strateji əhəmiyyət daşıyır.

Qeyd edək ki, yeni stansiyalar Bakı-Sumqayıt-Xırdalan və digər istiqamətlərdən gələn sərnişinlərin şəhər mərkəzinə daha rahat və sürətli çatmasına şərait yaradacaq.

**Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan nəqliyyat üzrə ekspert Rauf Ağamirzəyev bildirib ki, ictimai nəqliyyat növləri arasında metroya daha çox tələbat var:** "Bakıda 57 ildir ki, metro fəaliyyət göstərir. Lakin çox təəssüf ki, metro şəbəkəmiz şəhərimiz kimi sürətli inkişaf etməyib. Hazırda metronun bəzi sahələrinin tikilməməsi səbəbindən metro sağlam fəaliyyət göstərə bilmir və yüklənir. Yük parçalanmalı və sərnişin axınları bölünməlidir. Bakı metrosunun 3 xətti var. Bu 3 xətt minimum intervalla fəaliyyət göstərə bilmir, çünki texniki məhdudiyyətlər var. Onlardan biri "28 May" stansiyasında 2 xətt müstəvisində kəsişir. Bu bir problemdir, onun ayrılması istiqamətində qərar verilib. İkincisi isə yeni yaranmış "Bənövşəyi" xətdir. 2016-cı ildən tikintisinə başlanılan xətt "Xocəsən", "Avtovağzal", "Memar Əcəmi 2" və "8 Noyabr"a qədər uzanır. Tikinti davam edir, xəttin şəhər mərkəzinə çatdırılması nəzərdə tutulub. Şəhər mərkəzinə çatdırıldıqdan sonra 7 dəqiqəlik interval 1 dəqiqəyə düşəcək. Bu da çox önəmlidir. Çünki şəhərə şimaldan-Sumqayıt və Xırdalan istiqamətindən böyük bir sərnişin axını var. Bu axının hamısı indi "20 Yanvar" stansiyasına yüklənir. Avtovağzalda sürətli əlaqə təmin olunandan sonra insanlar "Avtovağzal" stansiyasında metroya minib



şəhərin mərkəzinə qədər gedə biləcəklər. Yaxud da şəhər mərkəzindən şimal istiqamətində sürətli hərəkət edəcəklər.

Metronun konseptual planı var. Orada fərqli istiqamətlər qeyd olunub. Bu istiqamətlər növbəti illərdə fəaliyyət göstərəcək. Hələlik 5 illik dövlət proqramı icra olunur. Onun əsasında 10 stansiya tikilməli, yeni depo yaradılmalı, xətlərin ayrılması təmin olunmalı və "Yaşıl" xəttin cənub qolu - "Xətai" və "Həzi Aslanov 2" stansiyası əlaqələndirilməlidir. Bütün bu tədbirlər bugünkü sərnişin axınını bölüşdürəcək. Bu gün əgər 8-ci kilometr qəsəbəsindən - "Əhmədli", "Həzi Aslanov" massivindən bir xətt üzrə hərəkət mümkündürsə, qeyd olunan xətlər tikiləndən sonra artıq iki variant yaranacaq: mövcud xətt və cənubdan yol götürən yeni xətt. Bu da sərnişin axınında yeni imkanlar yaradacaq".

**Ekspert bildirib ki, Abşeron rayonunda metronu əvəz edəcək nəqliyyat dəmir yolu şəbəkəsidir:** "Bu dəmir yolu şəbəkəsi vaxtilə 198 km olub. Müəyyən hissələri demontaj olunub, amma ümumi olaraq şəbəkə mövcuddur. O şəbəkəni sağlamlaşdırıb qatar sayını artırmaqla yerüstü metro funksiyasını dəmir yolu üzərindən təşkil etmək olar. Bu da proqramda var və bugünkü daşımanı yaxın 5 il ərzində 4-5 dəfə artırmağı hədəf qoyublar.

Metro stansiyalarının çəkilməsi ilə bağlı konseptual plan var. Plan ciddi sosial və iqtisadi araşdırmalar əsasında formalaşıb və Baş Plana uyğunlaşdırılıb. Metro çox baha başa gələn infrastrukturdur, böyük maliyyə tələb edir.

Şəhərin daxilində daha çox ehtiyac olan sahələr var, onlar tikilib bitirilməlidir. Konseptual planda "Koroğlu", "Dərnəgül" istiqamətinə, "Koroğlu"dan Bakıxanov, Qaraçuxur, Yeni Günəşli, oradan "Həzi Aslanov"a gələn xətt əslində daimi hərəkəti təmin etmək üçün çox vacibdir. Bu istiqamətlər daha vacibdir. Bu da çox güman, dövlət proqramının növbəti illərində, yeni 2030-dan sonra onlar da tikiləcək".

**Ekspert Elməddin Muradlı qəzetə açıqlamasında bildirib ki, metro xəttinin hava limanına qədər uzadılması planlaşdırılır. Onun sözlərinə görə, Xırdalana metro xəttinin çəkilməsi ilə bağlı təkliflər olsa da, Baş Planda və dövlət proqramında bu, nəzərdə tutulmayıb:** "Ola bilsin ki, gələcəkdə gündəmə uyğun olaraq belə bir addım atılsın. Ümumi plan ondan ibarətdir ki, Xırdalanı Bakı ilə əlaqələndirmək üçün ya "Xocəsən", "Avtovağzal" stansiyası vasitəsilə əlaqəli stansiya tikilməlidir, ya da yerüstü dəmir yolu xətti ilə əlaqələnməlidir. Dəmir yolu daha ucuz başa gəlir. Hazırda 28 metro stansiyası var, onların sayının 70-i keçməsi planlaşdırılır. Lakin bu o qədər də asan məsələ deyil. Pul və düzgün layihələndirmə olandan sonra bu işlər tədricən görüləcək. Tədricən 2040-cı ilə qədər metro stansiyalarının sayı 57 olacaq. Bakının tam olaraq metro ilə əhatə olunması üçün 74 stansiya planlaşdırılır. Stansiyaların tikildiyi ərazilər tikinti maqnatları tərəfindən zəbt olunmamalıdır. Çünki bu, gələcəkdə xərcləri artırır".

❑ **Şahanə RƏHİMLİ, "Yeni Müsavat"**

# Kazinolar açılarsa, nə qazanar, nə itirərik?

## Bakıda şəhər turizmi və əyləncə sektoru güclənə bilər

***"Nədənsə son günlər kazinolarla bağlı sualların ardı-arası kəsilmir. Görünür, ictimai rəy öyrənilir".***

Bunu **iqtisadçı ekspert Eldəniz Əmirov** Azərbaycanda kazinoların açılması ehtimalından danışarkən bildirib.

Onun sözlərinə görə, qonşu ölkələrin təcrübəsi göstərir ki, bu sahə düzgün idarə olunanda həm turizmə, həm xidmət sektoruna, həm də məşğulluğa müsbət təsir edə bilər: "Məsələn, Gürcüstan turizm cəlbediciliyini artırdı. Qazaxıstanda zonalaşdırma tətbiq olundu. Türkiyə isə qadağa yolu seçdi, nəticədə qeyri-leqal fəaliyyət yarandı, həmçinin qumar pulları xaricə axdı".



Bəs kazinolar Azərbaycana nə verə, nəyi əlimizdən ala bilər?

"Azərbaycana gələn turistlərin 80%-i Bakıdan o tərəfə çıxmır. Ona görə kazinolar Bakıda şəhər turizmini və əyləncə sektorunu gücləndirə bilər. Hotel və restoran biznesini canlandıra bilər. Yeni iş yerləri yarada bilər. Xarici valyuta və turist axınını artıra bilər. Dövlət büdcəsinə sabit gəlir gətirə bilər. Kölgə iqtisadiyyatında olan qumar pullarını leqallaşdıra bilər", - Eldəniz Əmirov vurğulayıb.

**İqtisadçı bildirib ki, əgər kazinolar açılacaqsa, bu, bir-iki şəxsin nəzarətində, inhisar formasında yox, rəqabətli və şəffaf şəkildə olmalıdır. Vergi yükü məntiqi səviyyədə saxlanmalı, amma dövlətə sabit gəlir təmin edilməlidir:** "Eyni zamanda risklər də nəzərə alınmalıdır. Qumar asılılığı, ailə büdcələrinin dağıntısı, sosial fəsadlar, çirkli pulların yuyulması və digər risklər daim mövcuddur.

Buna görə də bu sahə yalnız ciddi şərtlərlə açılmalıdır. Qumar oynayan şəxslərə məhdudiyyətlərin qoyulması məqsədilə (yaş və s.) şəxsiyyəti identifikasiya edilməli, "money laundering"ə qarşı xüsusi nəzarət mexanizmi qurulmalı, bütün ödənişlər nağdsız və izlənilə bilən sistemlə aparılmalıdır. Kazinolar coğrafi olaraq məhdudlaşdırılmalı, eyni zamanda onların reklamına ciddi nəzarət olunmalıdır.

Əlqərəz, əgər bu şərtlər təmin olunmayacaqsa, kazinoların açılması nə iqtisadi rifaha, nə turizmə, nə də xidmət sektoruna real fayda verəcək. Əksinə, bu addım cəmiyyətdə sosial pozuntuları artıran, hüquqi nəzarəti zəiflədən və mənəvi dəyərləri aşındıran bir prosesə çevriləcək. Nəticədə də dövlətin qazanacağından çox, cəmiyyətin itirəcəyi olacaq".

Yeni MÜSAVAT
N 78 (8688) 7 may 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"

**Prezident İlham Əliyevin tapşırığına əsasən, Qarabağa "Böyük Qayıdış" layihəsi uğurla həyata keçirilir. Proqramın ikinci mərhələsi üç fazadan ibarət olmaqla, 2026-2040-cı illəri əhatə edəcək və proses 2040-cı ilə qədər yekunlaşacaq.**



# Qayıdış torpaqlara yeni nəfəs verib

## İndiyədək Xocalı və Ağdərəyə 2073 nəfər qayıdıb

İndiyədək Xocalı və Ağdərəyə 2073 nəfər qayıdıb.

Bu barədə Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsi məlumat yayıb. Bildirilir ki, 2026-cı ilin sonunadək "Böyük Qayıdış" proqramının I mərhələsinin tamamlanacağı və bu mərhələdə 140 min keçmiş məcburi köçkünün Qarabağ və Şərqi Zəngəzura qayıdacağı planlaşdırılır. Məlumatda konkret rəqəmlər də ifadə olunub. Məlum olur ki, bu günədək Xocalı şəhərinə 341 nəfərdən ibarət 85 ailə, Xocalının Ballıca kəndinə isə 172 ailə- yeni 811 nəfər köç edib. Ümumilikdə Xocalıda 1152 nəfər məskunlaşıb. Ağdərə rayonunun Həsənriz kəndinə 70 ailə-238 nəfər, Suqovuşan kəndinə 180 ailə - 592 nəfər, Talış kəndinə isə 91 nəfərdən ibarət 20 ailə köçürülüb. Ümumilikdə, hazırda Ağdərənin kəndlərində 921 nəfər məskunlaşıb.

Məlumat üçün bildirək ki, təkcə ötən ay 444 ailə (1697 nəfər) öz doğma yurdunda məskunlaşdırılıb.

Bu barədə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi məlumat yayıb. "Prezident İlham Əliyevin azad olunmuş ərazilərə səfərləri davam edir, burada yeni yaşayış məntəqələri istifadəyə verilir. Öz dədə-baba yurduna qayıdan soydaşlarımıza yeni mənzillərin açarları təqdim olunur. Cari ildə daha 20-yə yaxın yaşayış məntəqəsinə keçmiş köçkünlərin qayıtması nəzərdə tutulur. İlin sonuna qədər 30-a yaxın yaşayış məntəqəsində keçmiş köçkünlər məskunlaşacaq".

**Bu sözləri Milli Məclisin deputatı Könül Nurullayeva deyib**: "Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş, 2022-2026-cı illəri əhatə edən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın hazırlanmasında mütərəqqi beynəlxalq təcrübə, bu sahədə strateji inkişaf tendensiyaları, işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi potensialı və dünya iqtisadiyyatının müasir çağırışları nəzərə alınıb. Proqramda 100 yaşayış məntəqəsi nəzərdə tutulur. Cəmi 9 aya inşa edilmiş Füzuli Beynəlxalq Hava Limanı, Zəngilan hava limanı istifadəyə verilib, Laçın rayonunda hava limanının tikintisi davam edir. "Böyük Qayıdış" Proqramının birinci mərhələsinin sonunda - 2026-cı ilin sonunda Qarabağ və Şərqi Zəngəzurda 140 min insan yaşayacaq".

Deputat əlavə edib ki, işğaldan azad edilmiş ərazilərə böyük qayıdış Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri kimi müəyyən olunub.

**Onun sözlərinə görə, bu, Milli Prioritetlərə əsaslanan "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" yeni inkişaf mərhələsindəki hədəflərə çatmağa xidmət edən mühüm sənəddir:** "Dövlət başçımızın da bəyan etdiyi kimi, biz bu torpaqların sahibləri, qurub-yaradanıyıq. Ermənilər 30 il ərzində bizim torpaqlarımızı dağıdaraq bütün evləri, tarixi binaları, məscidlərimizi yerlə-yeksan edib. Azərbaycanlıların öz yurd-yuvasına qayıdışı bu bölgəyə yeni nəfəs verib. Dövlət soydaşlarımızın



təhlükəsiz və rahat yaşaması üçün bütün tədbirləri həyata keçirir. Sakinlərin aktiv məşğulluğunun təmin olunması da əsas prioritetlərdən biridir. "Böyük Qayıdış" Proqramı çərçivəsində doğma yurdlarına köçürülən sakinlərdən özünüməşğulluq proqramı vasitəsilə kiçik təsərrüfatlarını quranların sayı artıq 262-yə çatıb".

**Deputat həmçinin vurğulayıb ki, azad olunmuş ərazilərdə təhlükəsizlik tədbirləri də davam etdirilir:** "Ərazilərin minalardan təmizlənməsi olduqca vacibdir. Buraya qayıdan vətəndaşların təhlükəsizliyinin təminatı başlıca vəzifələrdən biridir. Hazırda 159 min hektar ərazi minalardan təmizlənib. 2022-2025-ci illər ərzində ümumilikdə 215 min hektar ərazinin minalardan təmizlənməsi nəzərdə tutulur. Bu da öz doğma yurduna qayıdan soydaşlarımızın daha təhlükəsiz şəraitdə məskunlaşmasına zəmin yaradır. Bütövlükdə həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına xidmət edir, habelə həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsi üçün sağlam bünövrə yaradır".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Cavanşir ABBASLI

# Alimləri pulla Avropaya yığırlar - Azərbaycandan kimlər...




## Professor deyir ki, çox da güclü olmayan alimlər belə qısa müddətdə Avropada inkişaf edə bilər; "Alimləri bir şərtlə göndərmək olar, qayıdıb ölkəmizin inkişafına töhfə versinlər"

**Avropa Komissiyası (AK) bütün dünyadan alimlərin Avropaya cəlb olunmasını təşviq edən proqramlara dəstək məqsədilə 500 milyon avro ayıracaq.**

Bu barədə Avropa Komissiyasının rəhbəri Ursula fon der Lyayen Sorbonna Universitetində "Avropanı seç" proqramını təqdim edərkən bildirib.

"Biz hər zaman çalışacağıq ki, alimlər öz seçimlərini Avropadan yana etsinlər", - deyə o vurğulayıb. "Məmnuniyyətlə bildirirəm ki, Avropa Komissiyası 2025-2027-ci illər üçün 500 milyon avroluq bir paket ayırır. Məqsəd yeni alimləri Avropaya cəlb etməkdir".

O, həmçinin qeyd edib ki, Aİ ölkələri 2030-cu ilə qədər elmi-tədqiqat və inkişaf sahəsinə ÜDM-in 3 faizinə qədər sərmayə yatırmaq səviyyəsinə çatmalıdır.

Alimləri pulla Avropaya yığırlar, bəs bizimkilərə Avropada ehtiyac varmı?

Qeyd edək ki, ABŞ, Çin, Kanada və digər inkişaf etmiş ölkələr də istedadlı alimləri cəlb etməyə çalışır. Avropa geri qalmaq istəmir və elm, texnologiya, innovasiya sahəsində qabaqcıl mövqeyini qorumaq istəyir. Alimlərin apardığı tədqiqatlar texnologiyaların inkişafına, sənayenin modernləşməsinə və nəticədə iqtisadi artıma səbəb olur. Yeni elmə yatırılan pul gələcəkdə daha böyük iqtisadi qazanc kimi qayıdır. Avropada doğum səviyyəsi aşağıdır və əhali yaşlanır. Gənc və enerjili beynəlxalq alimlər cəmiyyətin və universitetlərin yenilənməsi üçün vacibdir. O da qeyd edilir ki, elm azad düşüncəni, əməkdaşlığı və insan hüquqlarını təşviq edir. Alimlər vasitəsilə bu dəyərləri dünyaya yaymaq Avropanın ideoloji məqsədidir.

**İqtisad elmləri doktoru, professor Zahid Məmmədov mövzu ilə bağlı "Yeni Müsavat"a fikrini bölüşüb:** "Avropa ilə Amerika arasında müqayisə aparsaq, Amerikada aparılan tədqiqatlar kitabxana üçün, Avropada aparılan tədqiqatlar isə adətən sənaye üçün nəzərdə tutulur. 60-cı illərdən sonra tədqiqatların sənayedə istifadəsi ilə bağlı Amerika önə çıxdı. Hazırda isə əksinədir - Amerikada aparılan tədqiqat işləri daha çox kitabxana üçün düşünülür, Avropada aparılan tədqiqat işləri isə sənaye üçün nəzərdə tutulur. Əlbəttə, Avropanın alimlərin cəlb edilməsi ilə bağlı belə bir qərar verməsi təsadüfi deyil - onlar bilirlər ki, cəmiyyətin rifahı və gələcək inkişafı elmdən asılıdır. Hansı ölkə elmə sahib çıxırsa, qüdrətli ölkəyə çevrilir.

Əvvəllər ölkənin iqtisadi gücü yalnız təbii resurslarla ölçülürdü. Lakin artıq bu anlayış keçmişdə qaldı. Biz bunun şahidiyik: heç bir təbii resursa sahib olmayan Cənubi Koreya bir vaxtlar yoxsulluq içində olsa da, 90-cı illərdən sonra dünyanın ən inkişaf etmiş ölkələrindən birinə çevrildi. Azərbaycan da elmə yönəlik strateji plan hazırlamalıdır. Hesablama Palatası araşdırmalıdır ki, xaricə göndərilən alimlərin neçə faizi orada qalır. Biz soruşmalıyıq: xaricdə qalan azərbaycanlı alimlərin ölkəmizin inkişafına hansı töhfələri var?

Məsələn, türkiyəli alim Əziz Sancar Amerikaya gedib, oradan da Türkiyəyə geri dönüb. O, Türkiyəyə və Özbəkistana səfərlər edir, türk gəncləri toplayıb aparır. Bu, çox vacib məsələdir: gedib öyrənmək və həmin bilikləri ölkədə tətbiq etmək. Çin niyə qalib gəldi? Çünki çinlilər başqa ölkələrdə öyrəndiklərini gəlib öz ölkələrinin inkişafına yönəltdilər. Çinin iqtisadiyyatının güclənməsinin əsas səbəblərindən biri də budur.

Mühit istənilən adamı yetişdirir. Məsələn, tanıdıqlarımız var ki, Avropa mühitində, Leninqradda, Moskvada çox da güclü olmayan alimlər qısa müddətdə inkişaf ediblər. Çünki mühit onları inkişaf etdirir - dövlət onları məişət problemlərindən azad edir. Elm və məişət problemi bir-biri ilə tərs mütənasibdir. Universitetin qarşısında bağça, məktəb - yəni alimi narahat edən bütün sosial infrastruktur həll olunub. Alimin inkişaf etməsi üçün mühit 70 faiz rol oynayır. Necə ola bilər ki, pakistanlı Pakistanda yox, gedib İngiltərədə qısa müddətdə aparıcı universitetin rektoru olur?

Düşünün, Əziz Sancar deyir ki, Amerikaya getməsəydi, Nobel mükafatı ala bilməzdi. Bizim ən böyük problemimiz budur ki, xaricdə olanlarla fəxr edirik, amma özümüzlə fəxr etmirik. Fəxr isə ölkənin iqtisadiyyatı və inkişafı üçün düşünməkdir. Maliyyə resursları elmi tədqiqatların əsasını təşkil etməlidir".

❑ **Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
Son səhifə
N 78 (8688) 7 may 2025
May

## Bunları bilirsinizmi?

* Yağlı yeməyi çox az qəbul edin.
* Suyu daha çox səhər, daha az axşam için.
* Yüklənən mobil telefondan uzaq durun.
* Ən yaxşı yuxu vaxtı - axşam saat 10-dan səhər 6-ya kimidir.
* Dərman içəndən sonra bir müddət uzanmayın.
* Telefonun enerjisi 1 və ya 2 xətt qalıbsa, ondan istifadə etməyin. Çünki bu zaman telefonla danışanda radasiya 1000 dəfə artıq təsir göstərir.
* Sizə istidirsə, dirsəklərinizi soyuq suya salın.
* Ayaqlarınız yorulmuşsa, sərin su ilə yuyun, sonra dabanlarınıza krem çəkin və dabandan dizə qədər masaj edin.
* Su çox içməyin - daha çox tərləyəcəksiniz, isti çay, ya da meyvə şirəsi susuzluğunuzu daha yaxşı yatırar.
* Dəri qış ərzində bir qədər solur və təravətini itirir, bunun qarşısını almaq üçün çimməndə dərini bərk sürtmək və təzadlı gah soyuq, gah da isti duş qəbul etmək lazımdır. Bu qan dövranını yaxşılaşdırır və solğunluğu aradan qaldırır.
* Xörək hazırlayarkən çatlamış əllərinizə işarası xiyar, pomidor, kartof püresi çəkməyi, kartof bişirilmiş suda əllərinizi yaxalamağı unutmayın.
* Əlləriniz çox kobudlaşmış, dırnaqlarınız sınmışsa, qızdırılmış günəbaxan yağında 10-15 dəqiqə saxlayın. Sonra əllərinizi yumayın, ancaq əski ilə silin.
* Əllər ağarsın deyə, onları boraks, ya da sirkə tökülmüş ılıq suda saxlamaq lazımdır. Qədim xalq təbabətinə görə çiy süd və ya limon şirəsi qatılmış su ilə vanna etmək yaxşı kömək edir.
* Daha bir məsləhət: sıxılmış limonu atmamışdan əvvəl onu əllərinizə çəkin. Turşuya qoyulmuş xiyarın suyunda əllərinizi vanna edin.

# Çayı belə içmək xərçəng yaradır



Alimlər bildirir ki, çay dəmləndikdən sonra 30-45 dəqiqə ərzində içilməzsə, təkcə dadını yox, həm də qida dəyərini və təhlükəsizliyini itirir. Otaq temperaturunda və ya ocaq üstündə uzun müddət qalan çayın tərkibindəki faydalı maddələr oksidləşir, bu isə həm rəngini qaraldır, həm dadını acıdır, həm də antioksidant xüsusiyyətlərini yox edir.

Çay boyatladıqca içində zərərli maddələr, xüsusilə də nitrit adlı toksik birləşmələr yaranır. Bu maddələr çox qəbul edildikdə mədə problemlərindən tutmuş immunitetin zəifləməsinə qədər bir çox xəstəliyə səbəb ola bilər. Üstəlik, isti yay günlərində açıqda qalan çay bakteriyaların çoxalmasına şərait yaradır ki, bu da bağırsaq pozğunluqlarını qaçılmaz edir. Bəzi insanlar qənaət məqsədilə çayı yenidən qızdırıb içsə də, mütəxəssislər xəbərdarlıq edir: çayı dəmlədikdən sonra 45 dəqiqə ərzində içmək doğrudur. Gecədən qalan çayı içmək yerinə, təzə dəm hazırlamaq həm sağlamlığınız, həm də çaydan zövq almağınız üçün ən yaxşı seçimdir. Unutmayın: çay nə qədər təzədirsə, bir o qədər faydalıdır. Bayat çay isə zərərsiz görünsə də, zamanla sağlamlığınıza zərər vura bilər.

## Sensasiyalı bəyanat: ABŞ qiyamət günü üçün hazırlıq görür

**ABŞ-da mümkün qiyamət gününə hazırlıq kimi ümumi dəyəri 21 trilyon dollar olan mürəkkəb yeraltı şəhərlər şəbəkəsi yaradılıb. Bununla bağlı ABŞ prezidenti böyük Corc Buşun dövründə mənzil-məişət nazirinin köməkçisi vəzifəsində işləmiş 74 yaşlı Ketrin Ostin Fitts məşhur teleaparıcı Taker Karlsona şok açıqlama verib. Fittsin sözlərinə görə, bu sığınacaqlar bəşəriyyətin yox olmasına səbəb ola biləcək qlobal fəlakət zamanı dünyanın ən zəngin insanlarına sığınacaq təmin etmək üçün nəzərdə tutulub. Onda olan məlumata görə, 1998-2015-ci illər arasında ABŞ-da 170-ə yaxın belə bunker tikilib. Onların bir hissəsi ölkə sahillərində okeanın dibində yerləşir.**

"Bu, fəlakətə hazırlıqdır", - deyə keçmiş məmur vurğulayıb. Fitts bildirib ki, iki il ərzində artıq məlum olan yeraltı hərbi bazalarla bağlı qeydləri öyrəndikdən sonra o, daha böyük bunkerlər şəbəkəsinin mövcudluğu ilə bağlı nəzəriyyələri təhlil edib. Nazirin keçmiş köməkçisinin sözlərinə görə, bunkerləri mürəkkəb nəqliyyat sistemi birləşdirib. Fitts hesab edir ki, yeraltı şəhərlər təkcə dünyanın sonu olacağı təqdirdə elita üçün sığınacaq kimi deyil, həm də hökumətin kosmos proqramı kimi gizli əməliyyatlar üzərində işləyə biləcəyi bir yer kimi mövcuddur.



## 13 dəfə ürəyi dayanan "Netflix"in 11 yaşlı ulduzu öldü

**"Netflix"də yayımlanan "Sintonia" serialındakı rolu ilə tanınan 11 yaşlı aktrisa Millena Brandao mayın 2-də vəfat edib. Oxu.Az xəbər verir ki, bu barədə TMZ məlumat verib. Qeyd olunur ki, ölümün səbəbi barədə rəsmi açıqlama verilməyib. Eyni zamanda bir sıra KİV-lər ölümündən bir müddət əvvəl qızın ən azı 13 ürəktutması keçirdiyini yazıb. "Splash" nəşrinin verdiyi məlumata görə, Millena Brandao ilk dəfə aprelin 28-də Braziliyanın San-Paulo şəhərindəki klinikaya müraciət edib. O, qızdırma, bədəndə ağrılar və başağrısından şikayətlənib. Ona dərman təyin etdikdən sonra buraxılıb. Ertəsi gün qız daha ağır vəziyyətdə yenidən xəstəxanaya yerləşdirilib və bundan sonra həkimlərin nəzarəti altında olub.**

Hadisə ilə bağlı araşdırmalara başlanılıb. Qızın valideynləri polisə ərizə veriblər. Zərərçəkmiş tərəfin vəkili bildirib ki, ailə faciəyə həkim səhlənkarlığının səbəb ola biləcəyini istisna etmir.

## Siçovulların böyük şəhərlərdə ölümcül bakteriya daşıdığı aşkar edildi



**Amerikalı alimləri şəhər siçovullarının potensial ölümcül xəstəlik olan leptospiroz bakteriyasını aktiv şəkildə yaydığını aşkar ediblər. "Teleqraf" xəbər verir ki, tədqiqat "PLOS Neglected Tropical Diseases" elmi jurnalında dərc olunub. Məlumata görə, böyük şəhərlərdə bakteriya gəmiricilərin sidiyi ilə ötürülür. Bostonun 17 yerindən 328 siçovul böyrəyini analiz edərkən, gəmiricilərin 18 faizində infeksiya aşkar edilib. Leptospiroz bakteriyası orqan çatışmazlığına da səbəb olur. Risk qruplarına siçovul dəlikləri ilə təmasda olan evsiz insanlar daxildir.**

## Çində 400 şagirdi olan repetitor toyu ərəfəsində öldü



**Çinin Uhan şəhərində kədərli hadisə baş verib. Oxu.Az "South China Morning Post" qəzetinə istinadən xəbər verir ki, təxminən 20 yaşlı gənc repetitor güclü stres və ağır iş yükü nəticəsində elə iş yerində vəfat edib. Faciə müəllimin toyundan cəmi bir neçə gün əvvəl baş verib. Məlumata görə, o, onlayn təhsil kursları platformasını idarə edən böyük bir şirkətdə ingilis dili və riyaziyyat üzrə repetitor işləyib və eyni vaxtda 400 şagirdə dərs deyib. Dərslərdən əlavə, o, valideynlərin çoxsaylı sorğularına cavab verir və hər gün buna 6 saat və ya daha çox vaxt sərf edirmiş. Günlərin birində gənc müəllim yenə ofisdə qalıb. Onun nişanlısı onunla əlaqə qura bilmədiyinə görə narahat olaraq polisə müraciət edib. Növbəti gün təmizlik işçisi müəllimi ofisində ölü vəziyyətdə tapıb. Həkimlər həddindən artıq iş yükü və stress səbəbilə qəfil ürək dayanmasını təsdiqləyiblər.**

## Fransada təhlükəli cinayətkar səhvən həbsxanadan azad edilib



**Fransada bir həftəyə yaxındır həbsxanadan səhvən buraxılan cinayətkar axtarılır. Məlumata görə, törətdiyi ağır cinayətə görə 11 il cəza çəkən 25 yaşlı məhbus Fransadan Mərakeşə deportasiya edilməli olan digər məhbusun əvəzinə Qradinyan kommunası həbsxanasından azad edilib. Qeyd olunur ki, həbsxana rəhbərliyi məhbusların oxşar adlarını qarışdırıb. Cinayətkar axtarışa verilib və onun barəsində Avropa İttifaqının bütün ölkələrində qüvvədə olan həbs qərarı verilib.**

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Lisenziya N: B 114
SAYI: 1.500
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.